**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NURANƏ RÖVŞƏN qızı MURADLI**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ YENİ MEYİLLƏR

**İxtisaslaşma: HSM – 060213 – Beynəlxalq münasibətlər**

**Magistr elmi dərəcəsi almaq üçün**

**təqdim edilmiş**

**DİSSERTASİYA**

Elmi rəhbər: ________________________

*H.C.ƏLİBƏYLİ*

*tarix elmləri doktoru, professor*

**Bakı – 2017**

## MÜNDƏRİCAT

**GİRİŞ.......................................................................................................3-9**

**FƏSİL 1.AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ YENİ MEYİLLƏRİN YARANMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR.......................................................................................................10-28**

1.1 Xarici siyasətin ənənəvi istiqamətlərində meydana çıxan çətinliklər..............10-18

1.2 Müasir geosiyasi proseslərin Azərbaycanın xarici siyasətinə təsiri................19-28

**FƏSİL 2.AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ÇAĞDAŞ PRİORİTETLƏRİ.......................................................................29-62**

2.1 Azərbaycanın Latın Amerikası ölkələri ilə qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsinin siyasi əsasları.......................................................................29-38

2.2 Cənub-Şərqi Avropa ölkələri ilə əlaqələrin inkişaf etdirilməsinin iqtisadi və geosiyasi faktorları.........................................................................................38-50

2.3. Şərqi və Cənub-Şərqi Asiya regionu Azərbaycanın xarici siyasətinin yeni üfüqü kimi..............................................................................................................50-62

**NƏTİCƏ.......................................................................................................63-65**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI............................................66-74**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir dövrdə Azərbaycanın xarici siyasətində yeni prioritetlərin yaranmasının səbəbləri və bu səbəblərlə əlaqədar olaraq formalaşan yeni qarşılıqlı ikitərəfli əlaqələrin öyrənilməsi elmi cəhətdən böyük əhəmiyyət kəsb edir.

XX əsrin sonlarında Azərbaycan Respublikasının xarici siyasətinin qarşısında əsasən təhlükəsizliyin təmin edilməsi, ərazi bütövlüyünün bərpası, iqtisadi problemlərin həll edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, ölkəmizin beynəlxalq miqyasda tanınması, regional kontinental təşkilatlara üzv qəbul olunması kimi əsas məsələlər dururdu. XXI əsrin başlanğıcından isə bir çox iqtisadi problemlər həll olunduğundan, ölkəmizin iqtisadi-siyasi əlaqələri genişləndiyindən, ordu quruculuğu prosesi başa çatdığından və beynəlxalq əhəmiyyətli strukturlara nəinki üzv, hətta onların rəhbərliyində təmsil olunmağa başladığından Azərbaycan artıq xarici siyasi əlaqələrini genişləndirməyə başlamışdır. Azərbaycan Respublikası öz mənafeyini müdafiə edə bilmək iqtidarında olan xarici siyasət kursu həyata keçirir və bu istiqamətdə atdığı müxtəlif əhəmiyətli addımları elmi tədqiqat obyekti kimi maraq doğurur, bu da dissertasiya mövzusunun aktuallığına dəlalət edir.

Beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara-bir sözlə, nüfuzlu tədbirlərə evsahibliyi edən Azərbaycan bəzi hallarda bir sıra çətinliklərlə qarşılaşır. Amerika Birləşmiş Ştatları (ABŞ) kimi böyük dövlətlərin və Avropanın kontinental təsisatlarının Azərbaycana qarşı nümayiş etdirdiyi qeyri-obyektiv və birtərəfli mövqe ilə meydana çıxan çətinliklər xarici siyasətdə və onun ənənəvi istiqamətlərində müxtəlif cür təzahür olunur. Xüsusilə son illərdə Avropa institutlarının Azərbaycana qarşı fəaliyyətində suveren dövlətə qarşı siyasi təzyiq metodu kimi insan hüquqları və demokratiya zəifliyi məsələsindən istifadə olunur. Yalnız Aİ deyil, həm də ATƏT, AŞ, İnsan hüquqları üzrə Avropa məhkəməsi kimi kontinental təsisatların anti-Azərbaycan siyasəti bu fikirləri təsdiqləyir. Bu məqamlarda öyrənilən mövzunun əhəmiyyətini göstərir.

Həddindən artıq dəyişkən olan müasir dünyanın geosiyasi mənzərəsi fonunda Azərbaycanın xarici siyasətinin təhlili proseslərə dərin və dəqiq baxışı tələb edir.

Çünki, "Ərəb baharı", Suriya böhranı, Krım münaqişəsi və s. kimi məsələlərin kökündə dayanan böyük dövlətlərin müdaxiləsi, zəngin təbii sərvətlərə sahib olmaq uğrunda mübarizə kimi hallar təzyiq metodları ilə hər bir dövlətin xarici siyasətində təzahür oluna bilir. Bu zaman böyük dövlətlərin eyni məzmuna malik hadisələrə fərqli meyarlarla yanaşmalarının və bütün hallarda eyni dərəcədə fəaliyyət göstərməmələrinin elmi cəhətdən təhlil olunması da öyrənilən mövzunun aktual olduğunu sübut edir.

Bütün bu sadalananlar dövlətimizin xarici siyasətində yeni meyilləri formalaşdırır. Əgər müstəqilliyimizin ilk illərində Azərbaycan böyük dövlətlərlə əlaqə qurmağa can atırdısa, hazırda əksər dünya dövlətləri ölkəmizlə əlaqə qurmaqda maraqlıdır. Bunlara son illər yüksək iqtisadi sıçrayışla fərqlənən Latın Amerikası, Cənub-Şərqi Avropa, Şərqi və Cənub-Şərqi Asiya regionu ölkələri ilə əlaqələri göstərmək olar. Beynəlxalq arenada ölkəmizin maraqlarını dəstəkləyən bu ölkələr ilə əməkdaşlığın inkişafı hazırda kapital ixrac edən ökəyə çevrilən Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu mövqeni dahada gücləndirərək, həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və haqlı mövqeyinin dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Müraciət olunan mövzunun araşdırılması, bu zaman əldə olunan nəticələr qeyd olunan əməkdaşlığın daha da genişləndirilməsinə öz töhfəsini verə bilər.

**Tədqiqat mövzusunun öyrənilmə dərəcəsi.** Qeyd edilməlidir ki, Azərbaycanın xarici siyasətində yeni istiqamətlər son zamanların prosesləri ilə əlaqədar formalaşan bir məsələ olduğu üçün mövzunun araşdırılması zamanı Azərbaycanın aparıcı qəzet və jurnallarında dərc edilən məqalə, analitik yazılardan, eyni zamanda çoxsaylı internet resusrslarından da geniş şəkildə istifadə edilmiş və tanınmış internet səhifələri mütəmadi olaraq izlənmişdir. Mövzunun daha ətraflı və geniş öyrənilməsi üçün beş - azərbaycan, türk, rus, ingilis, ispan dillərində olan müxtəlif mənbələrdən istifadə edilmişdir.

Azərbaycan dilində əsasən "Azərbaycan", "Xalq", "Respublika", "Kaspi" kimi qəzetlərin məlumatlarından istifadə olunmuşdur. Bu məlumatlarda Avropa strukturlarının Azərbaycana qarşı nümayiş etdirdiyi qərəzli siyasət, ölkəmizin buna

mövqeyi, Azərbaycanın nümunə ölkələrdən biri kimi atdığı xarici siyasi adımlar və qarşılıqlı ikitərəfli əlaqələrin dinamikası kimi məsələlər öz əksini tapmışdır (14; 24; 27). AR Prezidentinin Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Əli Həsənovun Azərbaycanın xarici siyasəti ilə bağlı çoxlu sayda kitab və məqalələri var (41). Onun "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" kitabında xarici siyasətin məqsəd və vəzifələri, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində ikitərəfli əlaqələri əks olunmuşdur (42). Novruz Məmmədovun "Xarici siyasət: Reallıqlar və Gələcəyə baxış" kitabında geosiyasi konsepsiyaların ideyaları ilə yanaşı, xarici siyasətin prioritetləri də öz əksini tapmışdır (47). Əsgər Əliyevin "Azərbaycan həqiqətləri Avropa Şurasında" əsəri təşkilatla ölkəmiz arasındakı əməkdaşlıqdan bəhs edir (32). 2009-cu ildə "ADU nəşriyyatı"nda siy.e.ü.f.d. Samir Həmidovun "Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan" kitabı nəşr olunur. Kitabda Avropa İttifaqı – Azərbaycan münasibətlərinin inkişaf mərhələri ilə yanaşı, eyni zamanda bu əməkdaşlığın problemləri də dəqiq faktlarla göstərilmişdir (40).

Türk dilində istifadə olunmuş məqalələr və araşdırmalar müasir geosiyasi proseslərə, bu proseslərdə mövcud olan ikili yanaşmalara, onun Azərbaycanın xarici siyasətinə təsirinə dair məlumatlar verir. Yrd.Doç.Dr. Taşkın Dənizin "Arap baharı ve Türkiye: siyasi coğrafya açısından bir değerlendirme" adlı elmi məqaləsində "Ərəb Baharı" və hadisələrin baş verdiyi siyasi coğrafiya, onun enerji ehtiyyatları, ABŞ və Aİ dövlətlərinin rol və məqsədləri aydın şəkildə göstərilmişdir (66). Mehmet Oğuzhan Tulunun "Dağlık Karabağ ve Kırım: Çifte standartların bir karşılaştırması" araşdırmasında Rusiya və Ukrayna arasında yaşanan gərginlik, Ukraynanın ərazi bütövlüyünün pozulması, Qərbin buna dərhal və sərt reaksiyası, lakin Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ məsələsində səssiz qalmaqları Qərbin ikili standartlar siyasəti ilə verilmişdir (70).

Rus dilində istifadə edilmiş internet resursları isə mövqelərin öyrənilməsi baxımından əhəmiyyətlidir. "Война в Ливии: ход и сценарии будущего" adlı məlumatda Liviyada baş verən proseslər, onun gedişatı, Qərbin buradakı aktiv mövqeyi, gələcək vəziyyət haqqında da müəyyən məsələlər qeyd olunmuşdur (77).

"Посол Азербайджана пожаловался в синагоге США на необъективное отношение к стране" resursu da tədqiqatın öyrənilməsində əhəmiyyətli olmuşdur. Burada ABŞ-ın ölkəmizə qarşı nümayiş etdirdiyi mövqe, Azərbaycanda insanların hüquq və azadlıqlarının pozulması barədə fikirlər tənqid olunmuş, Azərbaycan çoxsaylı xalqların, fərqli dinlərə mənsub insanların mehriban yaşadığı nümunə ölkə kimi göstərilmişdir (79).

İngilis dilində istifadə olunan məlumatlarda əsasən Azərbaycanın xarici siyasəti üçün yeni olan ölkələrlə siyasi əlaqələrinin qurulması, iqisadi və ticari münasibətlərin inkişaf dinamikası dəqiq faktlarla göstərilmişdir. 2015-ci ilin mayında Fərhad Məmmədovun "Strateji Araşdırmalar Mərkəzi" ndə "Azerbaijan's foreign policy – A new paradigm of careful pragmatism" adlı məqaləsi dərc olunur. Bu məqalə Azərbaycanın sahib olduğu və daha da inkişaf edən siyasi, iqtisadi və hərbi gücüCənubi Qafqaz dövlətləri ilə müqayisədə təhlil olunmuş, onun yeni geosiyasi reallıqlar fonunda xarici siyasəti və bu istiqamətlərə dərin yanaşması öz əksini tapmışdır (89).

Latın Amerikası regionu ölkələri ilə münasibətlərin inkişaf dinamikasını vermək üçün ispan dilində olan internet resurslarında da istifadə olunmuşdur. "Azerbaiyán afianzando su política exterior hacia América Latina" adlı məlumatda ölkəmizin xarici siyasi və iqtisadi potensialı, Azərbaycanın bu region ölkələri ilə əlaqələrinin yeni olmasına baxmayaraq yüksək xətlə inkişafı, qarşılıqlı olaraq səfirliklərin fəaliyyətə başlaması və s. faktlar göstərilərək, münasibətlərin perspektivləri də qeyd olunmuşdur (94).

**Tədqiqat işinin obyekti.** Tədqiqatın obyektini Azərbaycanın xarici siyasətində müasir geosiyasi proseslər fonunda formalaşan yeni meyillər təşkil edir.

**Tədqiqat işinin predmeti.** Qərbin böyük dövlətləri və kontinental təşkilatlarının Azərbaycana olan qərəzli mövqeyi ilə bağlı yaranan çətinliklər, Latın Amerikası, Şərqi və Cənub-Şərqi Asiya və Cənub-Şərqi Avropa regionu ölkələri ilə iqtisadi, siyasi, humanitar, mədəni sahədə ikitərəfli əlaqələrin öyrənilməsi tədqiqat işinin predmetinə daxildir.

**Tədqiqat işinin məqsədi.** Tədqiqat işinin əsas məqsədi regional və beynəlxalq münasibətlərdə baş verən dəyişikliklərin Azərbaycan Respublikasının xarici siyasətində yeni meyillərin formalaşmasına təsirini öyrənməkdən ibarətdir.

**Tədqiqat işinin vəzifələri.** Müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

- Azərbaycanın xarici siyasətinin ənənəvi istiqamətlərində ortaya çıxan çətinlikləri aydınlaşdırmaq;
- Müasir geosiyasi proseslərin Azərbaycanın xarici siyasətinə təsirini öyrənmək;
- Latın Amerikası regionu ölkələri ilə qarşılıqlı ikitərəfli münasibətlərin inkişaf dinamikasını təhlil etmək;
- Azərbaycanın Şərqi və Cənub-Şərqi Asiya regionu ilə yeni qurulan əlaqələrə aydınlıq gətirmək;
- Cənub-Şərqi Avropa regionu ilə iqtisadi və siyasi əlaqələrin inkişaf etdirilməsinin Azərbaycan üçün əhəmiyyətini təhlil etmək.

**Tədqiqat işinin metodoloji əsasları:** Magistr dissertasiyasının yerinə yetirilməsi zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. İş prosesində qarşıya qoyulan məqsədlərə çatmaq, Azərbaycanın xarici siyasətinin çağdaş prioritetlərinin inkişaf dinamikasını izləmək, problemlərin mahiyyətini açmaq, ümumiləşdirmələr aparmaq prosesində elmi-müqayisəli təhlil, sintez, deduksiya və induksiya kimi metodlar tətbiq olunmuşdur.

**Tədqiqat işinin elmi yeniliyi.**Avropa strukturlarının Azərbaycana qarşı qərəzli mövqeyinin öyrənilməsini, dünyada baş verən geosiyasi proseslərin ölkəmizin xarici siyasətinə təsirinin araşdırılmasını, Latın Amerikası regionu ölkələri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin əsaslandırılmasını, Azərbaycanın Cənub-Şərqi Avropa- Qərbi Balkanlarla, eləcə də Şərqi və Cənub-Şərqi Asiya regionundan olan dövlətlərlə münasibətlərinin iqtisadi və siyasi faktorlarının tədqiq edilməsini, həmçinin bunların müəllifin baxış bucağı altında neytral şəkildə qiymətləndirilməsini də tədqiqatın elmi yenilikləri sırasına daxil etmək olar.

**Tədqiqat işinin elmi və praktik əhəmiyyəti.** Dissertasiyanın özündə ehtiva etdiyi məlumatlar, alınan nəticələr və aparılmış ümumiləşdirmələr Azərbaycan

Respublikasının xarici siyasətinin yeni meylləri ilə bağlı bir çox suallara aydınlıq gətirilməsi baxımından əhəmiyyətlidir.

İş prosesində əldə olunmuş nəticələr öyrənilən problemlə bağlı müəyyən proqnozların verilməsinə və qiymətləndirmələrin aparılmasına yardım edə bilər. Bundan başqa, dissertasiyanın materialları əsasında Azərbaycanın xarici siyasətinin çağdaş istiqamətləri, müasir geosiyasi proseslərin bu siyasətə təsiri və bu istiqamətlərdə yeni məkan ölkələri ilə ikitərəfli münasibətlərin rolu və əhəmiyyəti ilə bağlı tədqiqatların aparılması, analitik materialların hazırlanması mümkündür.

Tədqiqat işində yer almış materiallar problemlə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**Tədqiqat işinin aprobasiyası**. Magistrlik dissertasiyasının əsas müddəaları, müəllifin dərc olunmuş, aşağıda göstərilmiş məqalə və tezislərində öz əksini tapmışdır:

1. Muradlı N. Azərbaycan Respublikasının xarici siyasətinin yeni meyilləri haqqında// Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş illik konfransının məruzələrinin tezisləri (I hissə) Bakı 2016. s. 170-172. Məruzə təşəkkürnaməyə layiq görülmüşdür.
2. Muradlı N. Azərbaycan Respublikasının xarici siyasətində yeni meylləri formalaşdıran Avropa strukturlarının ikili standartlar siyasəti// XIV Beynəlxalq tələbə elmi-praktik konfransının materialları. Qərb Universiteti, 2016.
3. Muradlı N. Azərbaycanın xarici siyasətinin ənənəvi istiqamətlərində ortaya çıxan çətinliklər // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-ci ildönümünə həsr olunmuş illik konfransının məruzələrinin tezisləri (I Hissə). Bakı 2016. s. 186-187.
4. Muradlı N. Latın Amerikası regionu ilə münasibətlər Azərbaycan Respublikasının xarici siyasətində yeni meyil kimi// IV Beynəlxalq Konfransın materialları Qafqaz Universiteti. Bakı 2016. s. 764-768

5. Muradlı N. Şərqi və Cənub-Şərqi Asiya regionu Azərbaycanın xarici siyasətinin yeni üfüqü kimi// ADU-nun elmi xəbərləri, Cild 2, Bakı 2017. s. 388-390
6. Muradlı N. Müasir geosiyasi proseslərin Azərbaycanın xarici siyasətinə təsiri // (ADU-nun elmi xəbərləri, Cild 3- çapdadır).

**Dissertasiyanın strukturu.** Magistr dissertasiyası "Giriş", iki fəsil, beş paraqraf, "Nəticə" və "İstifadə olunmuş ədəbiyyat siyahısı"ndan ibarətdir.

# FƏSİL 1. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ YENi MEYİLLƏRİN YARANMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

## 1.1. Xarici siyasətin ənənəvi istiqamətlərində meydana çıxan çətinliklər

Azərbaycan Respublikası öz mənafeyini müdafiə edə bilmək iqtidarında olan xarici siyasət kursu həyata keçirir və bu istiqamətdə müxtəlif əhəmiyyətli addımlar atır. Lakin bəzi hallarda bir sıra çətinliklərlə qarşı-qarşıya qalır. Amerika Birləşmiş Ştatları (ABŞ) kimi böyük dövlətlərin və Avropanın kontinental təsisatlarının Azərbaycana qarşı nümayiş etdirdiyi qeyri-obyektiv və birtərəfli mövqe ilə meydana çıxan çətinliklər xarici siyasətdə və onun ənənəvi istiqamətlərində müxtəlif cür təzahür olunur.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və Prezident Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları, ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur. Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçməmərasimindəki çıxışında qeyd etmişdir ki, "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı və səriştəli xarici siyasətin yeridilməsidir. Qarşımızda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyəyönəldilməlidir. Vəzifəsi isə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm AzərbaycanRespublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadəetməkdən ibarətdir" (42, s.177).

Xarici siyasət hər bir dövlətin beynəlxalq aləmdə mövqelərin möhkəmlənməsinə, ikitərəfli və çoxtərəfli münasibətlərin gücləndirilməsinə və ən

əsası mövcud problemlərin həllinə yönəlir. Avropa ilə Asiyanın qovşağında, çox mühüm əlverişli geostrateji mövqedə yerləşən, Cənubi Qafqazın kompleks şəkildə əhəmiyyətə malik ölkəsi Azərbaycan özünəməxsus xüsusiyyətlərini qorumaqla ikitərəfli və çoxtərəfli münasibətlərin gücləndirilməsinə xidmət edən müstəqil xarici siyasət kursu həyata keçirir. Sürətlə dəyişən müasir geosiyasi şəraitdə xarici siyasətin prioritet istiqamətlərini davamlı olaraq nəzərdən keçirmək zəruri şərtdir. Lakin məlumdur ki, Ermənistanın təcavüzünün dəf edilməsi, pozulmuş ərazi bütövlüyümüzün bərpa olunması, işğalçıların ölkə ərazisindən çıxarılması və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması bütün vaxtlarda Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən və istiqamətlərdən olmuşdur (42, s.189).

Heydər Əliyevin xarici siyasət kursunun mühüm prioriteti Qərblə münasibətlərin qurulması və inkişafı idi. Onun xarici siyasət kursunu uğurla davam etdirən İlham Əliyev yüksək diplomatik istedadı sayəsində dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlər və beynəlxalq təşkilatlar ilə münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirmişdir. Prezident Heydər Əliyev hakimiyyətə gələrkən NATO, Avropa Birliyi, Avropa İttifaqı və Avropa Şurası da daxil olmaqla Avropa və Transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya siyasətini xarici siyasətin əsas xətti kimi götürmüşdür (47, s.177). Bu istiqamətin seçilməsi 2 amilə əsaslanırdı: 1. Azərbaycan böyük güclərin toqquşma meydanına çevrilməməlidir. 2. Hər hansı geosiyasi gücün təsiri altına düşməmək üçün "çevik alyanslar" xətti seçməlidir (47, s.134).

Məlumdur ki, yüksək hərbi, iqtisadi və siyasi təsir gücünə malik olması ilə əlaqədar dünya siyasətində heç bir məsələ Qərbin iştirakı olmadan həll edilmir. Lakin bugün "ikili standartlar", qərəzli mövqe, siyasi təzyiqlər fonunda ortaya çıxan çətinliklər xarici siyasətdə mövcud olan bu xətti müəyyən qədər məhdudlaşdırır. Bununla bağlı, prezident İlham Əliyev demişdir: "Sual olunur, biz hansı Avropaya inteqrasiya etməliyik? Bugünkü Avropa göz qabağındadır. Özləri etiraf edirlər ki, Avropa məkanında dərin böhran yaşanır. Biz böhranamı inteqrasiya etməliyik?! "Müsəlmanlara stop" deyənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlman qaçqınlara

ikili standartlar tətbiq edənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlmanları qəfəsdə saxlayanlaramı inteqrasiya etməliyik?! Bax, sual bundan ibarətdir. Ona görə də bəzi hallarda bizə qarşı təzyiqlər də olur, kampaniyalar da aparılır, müxtəlif iftiralar da uydurulur. Bax, biz bu reallığı bilməliyik"(30). Çünki, ABŞ və onun müttəfiqləri yaratdıqları təhlükəli presedentlər ilə artıq beynəlxalq hüququn tələblərinə məhəl qoymamağa başlamışlar. Bunun isə dünyanın fərqli yerlərində parçalayıcı təsirləri müşayət olundu.

Bu proseslərdə Avropa təsisatları da az rol oynamır. Avropada islamafobiyanın artması, multikulturalizmin böhranı fərqli ölkələrdə müxtəlif cür təzahür edir. Bu qurumlar xristian dəyərlərini aşkar şəkildə üstün tuturlar. Aİ, ATƏT, AŞ, İnsan Hüquqları üzrə Avropa məhkəməsi kimi Avropa qurumlarının anti-Azərbaycan siyasətinin determinantlarının öyrənilməsi praktiki əhəmiyyət kəsb edir. Belə ki, 2016-cı il sentyabrın 26-da hətta Venesiya komissiyasında da referendumla bağlı süni arqumentlərlə dolu rəy hazırlanıb. Bu Azərbaycana qarşı olan böhtan kampaniyasının yenidən başlaması deməkdir (73). Bu kontinental təsisatlar Azərbaycana qarşı insan hüquqları məsələsindən siyasi təzyiq metodu kimi istifadə edirlər. 2015-ci il oktyabrın 12-də Nazirlər Kabinetinin iclasında prezident İlham Əliyev demişdir: "Azərbaycanda düşünülmüş müstəqil siyasət aparılır. Müstəqil siyasət aparmağımız bəzi problemlər yaradır. Böyük ölkə görəndə ki, dünyada öz sözünü deyən və heç kimdən çəkinməyən, prinsipial ölkə var, əlbəttə bu onları qıcıqlandırır." (45, s.6).

Bu münasibətlərə ayrı-ayrılıqda nəzər salaq. Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 25-də tanımış ABŞ ilə diplomatik münasibətlər 1992-ci il fevralın 28-də qurulmuşdur. Azərbaycan-ABŞ əlaqələri 1998-2005-ci illərdə inkişaf etməyə başladı. Xüsusilə 2001-ci il 11 sentyabr terror hadisəsindən sonra terrorizmlə mübarizə sahəsində sıx əlaqələr qurulmuşdur (93, s.42). ABŞ-ın "ikili standartlar"ını hələ 1998-ci ildə çox gözəl müəyyən edən Heydər Əliyev ABŞ-ın rəsmi nümayəndəsinə ölkəsinin siyasi idarələrində ikili oyun aparanların olduğuna işarə etmişdi (47, s.141). 2015-ci il mayın 2-də ictimaiyyətin söz mövzusu ABŞ xarici işlər naziri Con Kerrinin ofisindən anti-Azərbaycan kampaniyasının aparılması faktının

ortaya çıxarılması oldu. Bu planın üstünün tutarlı sənədlərlə açılması göstərir ki, bu siyasətin mərkəzində ABŞ-ın xarici işlər nazirinin ermənipərəst mövqeyi dayanır. Onun bu mövqedə olması yeni deyil. Con Kerrinin ermənipərəst və Azərbaycana qarşı qərəzli mövqeyinin kökü hələ 1990-cı illərə söykənir. Dağlıq Qarabağ problemi mövzusunda da dövlət katibi daim erməniləri dəstəkləmişdir(75). Məlumdur ki, Con Kerri 907 saylı düzəlişin müəllifidir.

Bunu da qeyd edək ki, Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi edərkən Qərbin güclü təzyiqi ilə qarşı-qarşıya qalır. Rəsmi Bakının ünvanına gah insan haqlarının pozulması, gah da söz və mətbuat azadlığının qorunmaması kimi ittihamlar irəli sürüldü. Freedom House, NED (National Endowment for Democracy), Human Rights Watch və digər qurumlar da həmişə anti-Azərbaycan mövqedə olmuşlar. Bütün rəylərində erməni lobbisinin fikirlərini nümayiş etdirirlər. Maraqlıdır ki, rus mütəxəssisləri "Svobodnaya Pressa" da müzakirələr apararaq bildirirlər ki, Qərb Rusiyanı zəiflətmək üçün ona güclü qonşularına təzyiq etməklə təsir edir və ilk sırada Azərbaycan var. Azərbaycanın müstəqil xarici siyasəti, bugün də bu siyasətin uğurla aparılması, davamlı inkişafı, gündən-günə güclənməsi Qərb dövlətlərini narahat etdiyi üçün burada vəziyyəti gərginləşdirməkdə maraqlı olurlar (75).

Daha bir fakt Cənubi Qafqaz fonunda Azərbaycanın əhəmiyyətli geostrateji mövqeyidir. Lakin bu fonda Azərbaycana olan qərəzli mövqe də nəzərdən qaçmır. Məruzələrdə Ermənistan "daha çox demokratiyası və açıq siyasi sistemi olan ölkə" kimi təqdim edildiyi halda, Azərbaycandan "zəif demokratiyası olan dövlət" qismində bəhs edilir. Demək olar ki, Vaşinqtonun bu mövqeyi Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə mane olur. Çünki, bu mövqe əsasını qeyri-obyektiv meyarlar təşkil edən siyasətdir (63). Məlumdur ki, Krımın zəbtindən bir neçə gün sonra ABŞ və müttəfiqləri Rusiyaya sanksiyalar tətbiq etməyə başladılar. Cənubi Osetiyada ad dəyişikliyi ilə əlaqədar planlaşdırılan referenduma dərhal münasibət bildirdilər. Eyni zamanda, beynəlxalq hüquqa zidd olan bir hadisəyə, yəni işğal olunmuş ərazidə - Dağlıq Qarabağda keçirilməsi planlaşdırılan "referenduma" səssiz qaldılar. Bunun səbəbi Dağlıq Qarabağ münaqişəsinin Qərb üçün təhlükəli olmaması

da ola bilər. Ukrayna, xüsusilə Qərbin təhlükəsizlik məsələsi olduğu üçün Avropanı təhdid edən hadisə idi (51).

Bunlarla yanaşı, ölkəmiz fərqli vaxtlarda ABŞ-ın müxtəlif qurumlarının qərəzli mövqeləri ilə qarşılaşır. Həmin təsisatlar müxtəlif üsullardan istifadə edərək daxili və xarici siyasətə müdaxilə etməyə çalışırlar. İnsan hüquqlarının vəziyyəti ilə əlaqədar hesabatlar hazırlayan ABŞ-ın özü hər cəhdlə bu müqayisələrdən yayınır. Bununla bağlı, Azərbaycan Respublikası Milli Məclisində "ABŞ-da insan hüquqlarının vəziyyəti" ilə bağlı qanun layihəsi hazırlanaraq təqdim olunub (4). Çünki, hal-hazırda elə ABŞ-ın özündə insan haqlarının pozulması halları, irqçilik, dini ayrıseçkilik və.s. kimi hallar demək olar ki, adi hala çevrilmişdir. Xüsusilə Donald Trampın prezident seçkiləri ərəfəsindəki çıxışları və vədləri buna misaldır. Məhz bu səbəbdən, ABŞ-ın etnik və dini mənsubiyyəti fərqli olan insanların bir arada mehriban yaşadığı nümunə ölkələrdən olan Azərbaycanı tənqid etməsi təəccüb doğurur (79).

1991-ci il dekabrın 31-də Azərbaycanın müstəqlliyini tanıyan Avropa İttifaqı ilə diplomatik əlaqələr 1992-ci il fevralın 27-də qurulmuşdur. 1996-cı ildə iki tərəf arasında müxtəlif sferalarda inkişafı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq" sazişi imzalanmışdır. 1999-cu ildən parlamentlərarası əməkdaşlıq inkişaf etməyə başladı. 2004-cü il iyunun 14-də Azərbaycan digər Cənubi Qafqaz dövlətləri ilə birlikdə "Avropa Qonşuluq" siyasətinə daxil oldu. 2009-cu ildə isə 6 ölkənin daxil olduğu "Şərq Tərəfdaşlığı" proqramına qoşulmuşdur. Aİ-nin Azərbaycan ilə yüksək xətt üzrə əməkdaşlığı ilə yanaşı fərqli yanaşması son zamanların hadisəsi deyil. Belə ki, Gürcüstan və Ermənistan kimi Cənubi Qafqaz dövlətləri ilə xüsusi müqavilələr 1996-cı ildə imzalandığı halda, Azərbaycanla 1997-ci ildə imzalanmışdı. Bundan başqa, Zaqafqaziya ölkələrinə edilən 3,2 mln ekyu dəyərində humanitar yardımdan 2 mln-u Gürcüstana, 1 mln-u Ermənistana və yalnız 200 mini Azərbaycana ayrılmışdı (40, s.159).

Prezident Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasındakı nitqində deyirdi: "Vahid Avropada ikili standartlara yol verilməməli və bütün münaqişələrə eyni dərəcədə münasibət göstərilməlidir." Aİ-nin problem hesab etdiyi məsələlərdən biri siyasi demokratiyanın vəziyyətidir. Müxalifətin zəifliyi və əhalinin çox az

faizinin siyasi fəaliyyətlə məşğul olması Avropa siyasi mərkəzi tərəfindən mənfi hal kimi qiymətləndirilmişdir. Avropa İttifaqının Azərbaycana olan qərəzli yanaşmasının mədəni aspektləri də ikili standartlara söykənir. Belə ki, Aİ-nin rəsmi saytında Cənubi Qafqaz regionu ölkələrinə dair yerləşdirilmiş məlumatların öyrənilməsi belə bir məsələni ortaya qoymuşdu ki, Azərbaycanın etnik və dini tərkibi haqqında müfəssəl informasiyalar verildiyi halda, Ermənistan və Gürcüstan barəsində bu haqda məlumatlar ümumiyyətlə mövcud deyil. Halbuki, Gürcüstan və Ermənistanın hər ikisində milli azlıqlarla bağlı çox ciddi problemlərin olması məlumdur. Lakin Azərbaycanda hər bir məsələni qabardan, gündəmə gətirən Qərbin kontinental təsisatları, Ermənistana və Gürcüstana münasibətdə daha yumşaq davranırlar (40, s.170). Prezident İlham Əliyev Azərbaycanın Aİ-yə mümkün qədər yaxın olmaq istədiyini, bunun strateji önəm daşıdığını və münasibətlərin gələcəkdə də böyük potensial olduğunu dəfələrlə açıqlamışdır. Lakin əlaqələr problemsiz deyil. Uyğunlaşmayan hədəflər və problemli əlaqə səbəbindən bu münasibətlər zədə görür. Səbəb isə Aİ-nin bura sivil cəmiyyət və demokratiya pərdəsi ilə yaxınlaşmasıdır. Nəzərə çarpan məsələ, Aİ-nin münaqişələrin olduğu Moldova, Ukrayna, Gürcüstan kimi ölkələrlə müqayisədə Azərbaycanın ərazi bütövlüyünü açıqca tanımamasıdır. Bu ikili yanaşmanın göstəricisidir. Bundan əlavə, Aİ beynəlxalq hüququn 2 zidd- ərazi bütövlüyü və öz müqəddaratını təyin etməkprinsipləri arxasında gizlənməyə davam edir. Helsinki Yekun aktında da göstərildiyi kimi, öz müqəddəratını təyin etmək prinsipi beynəlxalq səviyyədə tanınan dövlətdən ayrılmış əraziyə aid edilə bilməz. Lakin Aİ işğalı tənqid etməkdən qaçaraq, buna haqq verdiyi görüntüsünü nümayiş etdirməkdədir. Bunlar isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini nəinki ləngidir, hətta mane olur (89, s.34).

2015-ci ildə “Şərq Tərəfdaşlığı”nın Riqa sammitinin yekununda qəbul edilmiş bəyannamədə Krımın işğalı pisləndiyi, Ukraynanın ərazi bütövlüyü və suverenliyi dəstəkləndiyi halda, ATƏT-in Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə yönəlmiş fəaliyyətinin dəstəkləndiyi bəyan edildi. Yenə heç bir əsas göstərilmədən Krım problemi “qanunsuz ilhaq” şəklində əks olunur, amma Dağlıq Qarabağ məsələsindətəcavüzkara prinsipial qiymət

verilmədən, onu ünvanlı şəkildə pisləmədən formal və qarşıya heç bir vəzifə qoymayan diplomatik kazuistikadan istifadə edilir.Rusiyaya münasibətdəsanksiyalar tətbiq edən Aİ Azərbaycanın ərazi bütövlüyünü pozmuş Ermənistan barəsində heç bir adekvat bəyannamə qəbul etməyib (45, s.33).Daha bir məqam isə Abxaziyanın və Cənubi Osetiyanın separatçı rejimlərinin rəhbərlərinin Avropaya daxil olması qadağan edilib. Amma qondarma "Dağlıq Qarabağ respublikası"nın başçısı Şengen vizası ilə Aİ ölkələrinə rahatca səyahət edir, müxtəlif deputatlar, nazirlər vəbaşqaları ilə görüşür, sonra isə həmin ölkələrin rəsmi nümayəndələribəyan edirlər ki, bu səfərlər guya "şəxsi xarakter daşıyır" (45, s.37).

Avropa Parlamenti Aİ-nin əsas orqanlarından biri olaraq real hakimiyyətə malik deyil, məcburi xarakterli qətnamələr qəbul edə bilməz. Lakin AP-nin fəaliyyəti ilə Aİ-nin üzvü olmayan, lakin təşkilat üçün əhəmiyyətli olan ölkələrə informasiya təzyiqi həyata keçirilir. Qeyd edək ki, 2004-cü ildən AP Azərbaycan barəsində 11 qətnaməqəbul edib, 200-dən çox debat, dinləmə, müzakirə, parlament sorğuları keçirib, bəyannamələr və bəyanatlar imzalayıb. Bu sənədlərin əksəriyyəti qərəzli və qeyri-obyektiv xarakter daşıyır. Çünki, bu qətnamələrin hər biri Azərbaycana gəlib buradakı vəziyyəti öyrənmədən qəbul olunub. Gürcüstanla bağlı isə bir qətnamə qəbul edilib, 10-dan az müzakirə aparılıb, bəyannamə, parlament sorğusu və bəyanat qəbul olunub. Ermənistan barəsindədə bir qətnamə və 20-dən az bəyanat qəbul edilib, debatlar, parlament sorğuları keçirilib. Halbuki bu ölkələrə daha tez-tez səfərlər həyata keçirilir. 2015-ci il martın 12-də Avropa Parlamenti "Dünyada insan haqları və demokratiya" adlı sənəd ilə Aİ-nin üzvü olan ölkələrə qondarma "erməni soyqırımı"nın tanınması ilə əlaqədar müraciət etmişdir. Sənəddə 24 aprelin "erməni soyqırımı" günü kimi qeyd edilməsi nəzərdə tutulurdu. Bu addım Aİ-nin anti-Azərbaycan mövqeyini bir daha ortaya qoydu (41). Avropa Parlamentində artıq anti-Azərbaycan mövqeli 4 qətnamə qəbul olunub. Bu qətnamələrin hüquqi gücü olmasa da, Avropa dövlətlərinin mövqeyini əks etdirən siyasi təzyiq və sıxışdırmadır. Başqa bir məqam isə, 2015-ci il iyunun 3-də AP-də "Münaqişələr vətəyini-müqəddərat hüququ" məsələsinə dair müzakirələrdə "Aİ-Ermənistan dostluq qrupu" tərəfindən təşkil olunan tədbirdə Dağlıq Qarabağ münaqişəsinin müzakirə edilməsidir. Əsas

məsələ isə həmin tədbirdəAzərbaycandan heç kəs iştirak etməməsidir (45, s.47). Halbuki münaqişənin bir tərəfi kimi Azərbaycanın öz haqlı tələbləri ilə burda iştirakı vacib idi.

Məlumdur ki, ATƏT-in Minsk qrupuErmənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə danışıqlar vasitəsi ilə həlli üçün 1992-ci il martın 24-də yaradılmışdır. Problemin həlli ilə əlaqədar sənədlər qəbul etsə də, Ermənistandan buna əməl etməsi tələb edilmir. Bu istiqamətdə atılan addımlar yetərsizdir. ATƏT-in Minsk qrupunun həmsədrlərinin işğalçı ilə işğala məruz qalan tərəfə eyni yanaşması "ikili standartlar"a sübut olaraq onların ədalətli vasitəçiliyinə olan inamı heçə endirmişdir. ATƏT Cənubi Osetiya, Abxaziya, Dnestryanı münaqişələr barəsində qəti mövqe nümayiş etdirdiyi halda, Dağlıq Qarabağ münaqişəsində bu münasibəti göstərmir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) Azərbaycanda gah "siyasi məhbus" axtarır, gah milli azlıq problemini icad edirlər, gah da söz azadlığının olmamasından danışırlar. Göründüyü kimi bu büro erməni lobbisinin əlində bir alətə çevrilib (5).

Azərbaycanın Avropa Şurası ilə əlaqələrinə nəzər salaq. Qeyd edək ki, Avropanın 28 ölkəsini öz ətrafında birləşdirərək onların iqtisadi inkişafına şərait yaradan Aİ-dən fərqli olaraq 47 ölkəni özündə birləşdirən AŞ insanların hüquq və azadlıqlarını, gündəlik həyatında yaranan problemlərini həll etməklə məşğul olur. AŞ siyasətə birbaşa qarışmasa da ümumi Avropa məkanının yaranmasına hər zaman səy göstərir (32, s.9). 2001-ci il yanvarın 25-də prezident Heydər Əliyev AŞ binasının yerləşdiyi Strasburqda təşkilat rəhbərləri tərəfindən böyük hörmətlə qarşılandı. Azərbaycan və Ermənistanın üzv qəbul olunması ilə əlaqədar mərasimi açan baş katib Valter Şvimmer həm də qeyd edir: "İki dövlətin eyni vaxtda üzvlüyə qəbul edilməsi əlamətdar hadisədir. Biz ümid edirik ki, Avropa ailəsinə daxil olmaqla uzun illər davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli üçün real imkanlar olacaqdır." (32, s.33). Xatırladaq ki, Azərbaycan Avropa Şurasının üzvlüyünə qəbul olunarkən xristian demokratlar bu ölkədə müsəlman əhalinin üstünlük təşkil etdiyinə görə onu təşkilatın üzvləri sırasında görmək istəmirdilər (45, s.29). Bugün iki tərəf arasında "siyasi məhbus" deyilən problem var. Bu məsələdə Azərbaycan ilə AŞ-nın mövqeyi

tamamilə fərqlidir. Azərbaycanın buna tam hüquqi problem kimi baxmasına baxmayaraq, Avropa Şurası bunu siyasi məsələ kimi qəbul edir və bu iddialarla geniş miqyaslı kampaniyalara başlamışdır. Hətta məsələ ilə bağlı İlham Əliyev qeyd edib ki, "Azərbaycanda siyasi məhbus yoxdur, müxtəlif cinayətlər törətmiş insanlar var, onlarda cəzalarını çəkirlər. Onlar bizə bu anlayışın meyarlarını desinlər və bu yalnız ölkəmizə deyil, bütün respublikalara şamil edilsin." (32, s.228). Azərbaycanın təkidləri nəticəsində Avropa Şurası meyarların olmadığını etiraf etmişdir. Burada məqsəd təzyiq göstərməkdən və Azərbaycanın diqqətini işğal altında olan ərazilərin azad edilməsi istiqamətindəki davamlı fəaliyyətdən yayındırmaqdan ibarətdir. Çünki həqiqətən insan hüquqlarının pozulmasından narahat olan bir qurum Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal altında saxlanmasına, yüz minlərlə azərbaycanlının hüquqlarının kobud şəkildə pozulmasına laqeyd qala bilməzdi. Məsələ burasındadır ki, bu məsələ indiyə qədər Azərbaycandan başqa heç bir ölkəyə aid edilməyib. Bu ayrıseçkiliyin göstəricisidir (58).

Lakin bütün bunlar əsası Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın müstəqil xarici siyasətindəki başlıca prioritetləri nəinki dəyişmir, əksinə, bu siyasəti uğurla davam etdirən İlham Əliyev mövcud əlaqələri daha da inkişaf etdirmək üçün davamlı işlər görür. Bunun nəticəsi kimi, ABŞ və Rusiya Baş Qərargah rəislərinin görüş üçün məhz Bakını seçməsini qeyd edə bilərik. Bunun səbəbi Azərbaycanın yaranmış vəziyyəti obyektiv qiymətləndirməsi, tərəflərin etibarını qazanması, beynəlxalq tədbirlərə təhlükəsizliyə tam təminat verə biləcək şəkildə ev sahibliyi etməsi, tərəflərlə yaxşı münasibətlərlə yanaşı neytral olması, habelə beynəlxalq münasibətlərin və beynəlxalq hüququn bütün prinsiplərinə hörmətlə yanaşmasıdır.

## 1.2. Müasir geosiyasi proseslərin Azərbaycanın xarici siyasətinə təsiri

Müasir dünyanın geosiyasi mənzərəsi həddindən artıq dəyişkəndir. Bu fonda Azərbaycanın xarici siyasətinin təhlili proseslərə dərin və dəqiq baxış tələb edir. Çünki, problemlərin kökündə dayanan böyük dövlətlərin müdaxiləsi, zəngin təbii sərvətlərə sahib olmaq uğrunda mübarizə kimi hallar təzyiq metodları ilə hər bir dövlətin xarici siyasətində təzahür oluna bilir. Bunları həmçinin "geosiyasi ikili yanaşma" da adlandırmaq olar. Bura böyük dövlətlərin eyni məzmuna malik hadisələrə fərqli meyarlarla yanaşmalarını və bütün hallarda eyni dərəcədə fəaliyyət göstərməmələri də aiddir.

Şimali Afrika və Yaxın Şərq regionunda baş verən "Ərəb baharı" 2010-cu ilin dekabrından ərəb ölkələrində işsizlik, ərzaq qiymətlərinin yüksəlməsi, söz azadlığının məhdudlaşdırılması, bürokratik əngəllər və aşağı həyat səviyyəsi ilə əlaqədar başlayan etiraz nümayişləridir. İlk çıxışlar 2010-cu il dekabrın 18-də Tunisdə başlamış, bir-birinin ardınca digər ərəb ölkələrinə də keçmişdir (31, s.161). "Ərəb Baharı" ilə Şimali Afrika və Orta Şərqdəki dəyişən siyasi balans, Fələstinin BMT-yə və beynəlxalq cəmiyyətə üzv olmayan müşahidəçi dövlət" statusu ilə qoşulma yolunun açılması vəziyyəti daha da çox dəyişmişdir. Yaxın Şərqdə baş verənlər inqilab kimi müəyyənləşdirilmişdir. Lakin bu inqilabları digərlərindən (Fransa, Rusiya, Çin, Kuba kimi) fərqləndirən ən əsas amillərdən biri subyektiv və irimiqyaslı məqsədlərinin olmaması, ictimai və siyasi münasibətlər sisteminin xarakterində kordinal dəyişikliklərə gətirib çıxarmasıdır (46).

Üsyanların səbəbləri kimi göstərilən iqtisadi durğunluq, korrupsiya, işsizlik və.s. bu kimi halların araşdırılması, əslində onların hadisələrin izahında yetərsiz olduğunu göstərdi. Bu hallar inqilabların başlaması üçün ilkin şəraiti formalaşdırmış ola bilər, lakin ana məqsədi azad olmayan ölkələrə demokratiya gətirmək kimi açıqlanan hadisələrin səbəbi deyildir. Çünki elə Liviyanın özündə ÜDM-un adambaşına düşən həcmi 12 min dollara yaxın olmuşdur. Deməli səbəbi geosiyasi amillərdə axtarmaq daha doğrudur. İkinci bir amil isə islam amilidir. XX əsrin əvvəllərində təxminən 150-170 milyon insan islam dininə mənsub idi. Bu ümumi dünya əhalisinin 1/10-i demək idi. Müasir dünyada isə 1,5 milyard müsəlman yaşayır. Bu isə dünya əhalisinin ¼-i deməkdir. Digər bir amil Avropaya olan miqrasiyanın

mühüm hissəsini Yaxın Şərqdən olan müsəlman miqrantların təşkil etməsi amilidir (46).

Məlumdur ki, "Ərəb Baharı" adlanan hadisələrəBarak Obamanın dövründə Amerika və onun müttəfiqləri pozitiv yanaşmışlar. "Diktatura rejimlərini dəyişdirmək" üçün qanlı üsul kimi, vətəndaş müharibəsi seçildi. Bu sirr deyil ki, həlledici və təsiredici rolu məhz Ağ ev oynayır. "Ərəb baharı" yenilik deyil. O, Corc Buş administrasiyasının irəli sürdüyü "Böyük Yaxın Şərq" layihəsinin taktiki variantıdır (53)."Ərəb Baharı" termini baş vermiş dəhşətli hadisələrin "demokratiya" adı ilə ərəblərə sevdirmək üçün hazırlanan siyasi oyundur. Lakin "demokratikləşmə" pərdəsi altında həyata keçirilən siyasətə heç bir cəhdlə bəraət qazandırmaq mümkün deyil. İstənilən cəmiyyətdə demokratiya mövcud vəziyyəti dağıtmaqla deyil, həmin cəmiyyətin tarixi, mədəni, siyasi və iqtisadi inkişafı ilə müşayiət olunmalıdır (24). Bu geosiyasi proseslərdə xarici amilin rolu maraq doğurur. Regionun geosiyasi və geostrateji əhəmiyyəti bu əlaqəni daha aydın qavramaq üçün faydalı olur. "Ərəb Baharı"nın coğrafiyası dünyanın təbii ehtiyyatlar baxımından ən zəngin bölgələrindən biri hesab olunur. Həmçinin neft və təbii qaz baxımından isə ən iddialı region olduğu mübahisəsizdir. Təbii ehtiyatların sadəcə iqtisadiyyatda deyil, dünya siyasətindəki rolunun ən azı yüz ildir artan xəttə malik olduğu nəzərə alınarsa, kənar qüvvələrin regionla bağlı maraqlarının dərəcəsi az-çox aydın olur (35).

Bu hadisələr əlverişli coğrafi, strateji mövqeyə, zəngin təbii ehtiyyatlara malik olan digər ölkələrlə yanaşı, Azərbaycan Respublikasının siyasətinə də hədə ola bilər. Bütün bunların Azərbaycanın xarici siyasətinə təsirində yenə də "ikili standartlar" məsələsinə qayıtmış oluruq. Göstərdiyi təzyiqlər və eləcə də burada yaratmaq istədiyi şəraitin "səbəbi" kimi ABŞ-ın "Azərbaycan artıq Qərbi və onun dəyərlərini "inkar etmək" yolunu tutub" düşüncəsini göstərmək olar (8).

Ərəb dövlətlərində baş vermiş hərbi əməliyyatlar nəticəsində minlərlə insan qətlə yetirildi və milyonlarla insan ölkəsindən qaçmağa məcbur oldu. Bu gün də həmin ölkələrdə vəziyyət gərgin olaraq qalmaqdadır. Hesab etmək olar ki, həmin dövrdə baş vermiş bəzi hadisələr "Ərəb Baharı"nın mexaniki şəkildə Azərbaycana da köçürülməsi məqsədini güdürdü. Belə ki, 2012-ci ilin martında Qubada, 2013-cü ilin

yanvarında isə İsmayıllıda təşkil edilmiş iğtişaşlar dünyaya "xalq üsyanları" kimi tanıdıldı. Lakin, bu çevriliş planlarının əksinə olaraq Qərbin hakim dairələri Azərbaycan xalqının təxribatlara uymadığına və mövcud hakimiyyətə hərtərəfli dəstək verdiyinə bir daha əmin oldular (3). Prezident İlham Əliyev sentyabrın 8-ində iqtisadi məsələlərə və 2016-cı ilin dövlət büdcəsinin hazırlığı işlərinə həsr edilmiş müşavirədə də bu məqamlara xüsusilə toxunaraq qeyd etmişdi: "Bu gün Yaxın Şərqdəki bu ssenarilər Azərbaycan üçün də hazırlanmışdı. 2011-2012-ci illərdə bəzi xarici dairələr Azərbaycanda "Ərəb baharı"nın qaçılmazlığından söhbət açırdılar. Burada vəziyyəti gərginləşdirmək üçün böyük pullar xərcləyərək, min cür işlərdən çıxmışlar. Mən bunu açıq deyirəm və başqa cür də qəbul etmirəm." (8).

Ərəb dünyasının xalq hərəkətlənməsi olduğu ölkələrində müəyyən bənzərlik yaratsa da, mahiyyəti, həmçinin nəticələri baxımından fərqlilik kəsb etməkdədir. Məsələn, bunlardan biri Şimali Afrika regionunun əhəmiyyətli neft ölkəsi olan Liviya da "Ərəb Baharı"ndan ciddi şəkildə təsirlənmiş və 1970-ci ildən bəri hərbi zərbə ilə iqtidarda olan Muammer Qəddafinin devrilməsi ilə nəticələnmişdir (69). Burada da Qərbin tutduğu mövqe və təşkilatların hadisələrə münasibəti maraq doğurur. ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya hökumətləri Qəddafinin bir diktator olduğunu çox yaxşı bilirdilər. Ancaq Trablus ilə qazanclı razılaşmalar etmək xaricində heçnə etmədilər. Media 2011-ci ilin fevralında Liviyada yaşanan şiddət dolu hadisələri qələmə aldığı zaman eyni zamanda burada istifadə olunan silahların da haradan gəldiyini bildirməsi lazım idi (71). Bu silahların ABŞ və Aİ tərəfindən Liviyaya gətirildiyi artıq diqqətli olmağı tələb edir. Pentaqonun mətbuat katibi polkovnik-leytanant Hibner 2009-cu ildə etdiyi şərhdə bu əlaqəni belə açıqlayır: "ABŞ, Liviyanın bölgədə hər iki ölkənin maraqlarına xidmət edəcək şəkildə hərbi gücünü artırması üçün lazımi müdafiə avadanlıqları ilə təchiz edir." ABŞ-ın bütün yeni silahları Liviyada da mövcuddur. Bunlardan görünür ki, demokratiya yalnız ABŞ və Aİ maraqlarına boyun əyməyən və xidmət etməyən ölkələrə qarşı bəhanə olaraq istifadə edilməkdədir (77). Qəddaf əd Dam özü müsahibəsində bildirib: "NATO bloku 2011-ci ildə Liviyaya vahid cəbhə ilə gəlib, sonra isə şərqdə, cənubda və qərbdə bir-birinə qarşı vuruşan tərəfləri dəstəkləyərək fevral hadisələrindən yaranmış

bütün qruplaşmaları silahlandırıb. NATO münaqişənin bitməyini istəməyərək onu idarə edib. Aydındır ki, Liviyanı məhv etməyə gələn Qərbin planı hələ tamamilə yerinə yetməyib. Bunun üçün qruplaşmaları yemləyirlər.” (78).

Burada diqqət çəkən digər bir məqam beynəlxalq təşkilatların Liviya daxili münaqişəsinə göstərdiyi sərt reaksiya və operativ münasibətdir. BMT TŞ-nın Liviyada cərəyan edən hadisələrlə bağlı, haqlı olaraq, qətnamə qəbul etməsi və məlum qərarının operativ icrası, eləcə də beynəlxalq birliyin Qəddafinin nəzarətində olan silahlı qüvvələrə qarşı dərhal hərbi əməliyyatlara başlaması, bu prosesə NATO-nun qoşulması bir sıra məntiqi sualları ortaya çıxarır. Yəni BMT TŞ-nın Liviya ilə bağlı qərarları dərhal həyata keçirildiyi halda, Ermənistanla bağlı ayrı-ayrı vaxtlarda qəbul etdiyi 4 - 822, 853, 874 və 884 saylı qətnamələri neçə illərdir ki, icra edilmir və bunlara əməl etmək tələb edilmir. Bu hal da dünya siyasətində ikili standartların mövcudluğundan xəbər verir (34).

Daxili faktorların səbəb olduğu düşünülən, “Ərəb Baharı”nın daha bir dalğası Suriyada 2011-ci ilin martında öz pik həddinə çatdı. Burada da siyasi çəkişmələrin silahlı qarşıdurmalara çevrilməsi üçün kiçik səbəblər bəhanə olaraq göstərilməkdədir. Məsələn, I dünya müharibəsinin Avstriya-Macarıstan vəliəhdi- Frans-Ferdinandın öldürülməsi ilə başladığı kimi. Yəni göstərilən və görünən daxili amillərin fonunda görünməyən xarici amillərin yönəldici təsirləri həlledici rol oynayır. Burada da müxtəlif mövqedə yer alan qlobal güclərin fəaliyyəti daha öndədir. ABŞ və Türkiyənin prioritetləri fərqlidir. Hər iki güc Bəşər Əsədin artıq hakimiyyətini itirdiyini və tez bir zamanda iqtidardan getməsinin lazımlığını müdafiə edir, ancaq sonrakı tarazlığın necə olması barədə fərqli düşünürlər. Türkiyə, vahid Suriya görmək istərkən, ABŞ Yaxın Şərqdəki neft və təbii qaz yataqlarının təhlükəsizliyini əsas hesab etməkdədir. Elə bu fərqli mövqelərin əsas ünsürü enerji geosiyasətləridir. Xüsusilə neft və təbii qaz təmiz enerji qaynağı kimi kömür və nüvə enerjisindən üstün tutulur (68).

Əslində bu amilə baxanda Azərbaycanda bu şəraitin yaradılması istəkləri aydın olur. Çünki, göstəricilərə və mövqelərə diqqət yetirdikdə Suriyadakı daxili münaqişədə iştirak edən böyük güclərin məqsədinin heç də humanitar, insani yardım

olmadığı, ölkəyə müdaxilə edərək, onun enerji qaynaqları və daşınma dəhlizlərini ələ keçirmək uğrunda mübarizə olduğu ortaya çıxır (74). Təbii qaynaqlar uğrunda aparılan bu mübarizədə Qərbin bu qədər aktiv olmasının səbəblərini 2008-2009-cu illərin iqtisadi böhranı ilə də izah edə bilərik. ABŞ-dan başlayan bu böhran tezliklə digər ölkələrə yayıldı. Bu səbəblə istər beynəlxalq arenada, istər ölkə sərhədləri çərçivəsində öz vətəndaşlarına qarşı çətin vəziyyətə düşən ABŞ, bu böhrandan çox təsirlənməyərək güclənən Rusiya, Çin, İran kimi dövlətlərin varlığını qlobal problem hesab edərək hərəkət keçirdi. Bu ölkələrin Yaxın və Orta Şərq regionunda nüfuzunun artırması, digər dövlətlərin burada tətbiq etməyə çalışdıqları enerji ehtiyatlarından yararlanmaq siyasətinə qarşı çıxmaları, bölgə dövlətlərinin Qərbə etibarını azaltmaqdadır. Bu səbəblə ABŞ və müttəfiqləri bölgədəki nüfuzlarını itirməmək üçün özlərini dəstəkləyən etnik qruplarla birgə hərəkət edərək mövcud idarəçiliyin dəyişməsini təmin etmək üçün cəhdlər edirlər (66, s.29).

Son illərdə beynəlxalq münasibətlər sisteminə dəyişiklik gətirən daha bir hadisə Rusiya və Ukrayna arasında yaşanan gərginlikdir. Səbəb isə yenə 45 mlyn əhalisi olan Ukraynanın Rusiya və Avropa arasında olduğu üçün sahib olduğu əlverişli geostrateji mövqedə olması hər iki tərəf üçün önəmli olması aydın görünür. 2013-cü il oktyabrın 21-də Yanukoviç, Aİ ilə əlaqələrini daha da möhkəmlədəcək əməkdaşlıq razılaşmasını imzalamayacağını bildirdi. Bu isə Yanukoviçin Rusiyaya yaxınlaşacağı mənasına gəlirdi. Məlumdur ki, Putin Avropayönümlü Yuşenkonun prezident seçilməsi ilə Ukraynaya qaz ixracını dayandırmışdı. 24 oktyabrda “Ukrayna Avropadır” şüarları ilə nümayişlər başladı və tez bir zamanda genişləndi. Etirazçılar xalqın istəklərini yerinə yetirməyən hökumət və prezident istəmədiklərini bildirirdilər. Rus mediası isə etirazların ABŞ tərəfindən maliyyələşdirildiyini və etiraz edənlərin professional “inqilabçılar” olduğunu iddia edirdilər. Öz növbəsində ABŞ və Avropa baş verənləri qəti şəkildə tənqid etdilər. Sonrakı günlərdə Yanukoviç ortadan itdi. Onun Rusiyada olduğu ehtimal olundu. Soçi Olimpiada Oyunlarının bağlanış mərasimindən sonra prezidentin Rusiyaya yaxın bir ərazidə- Krımda olduğu irəli sürüldü. Məlumdur ki, Krım Rusiyanın Qaradəniz donanmasına ev sahibliyi edir. Yalnız əhalisinin çox az hissəsini təşkil edən müsəlman tatarlar Rusiyanın

Ukraniyaya müdaxilə etməsinə qarşı idilər. 1 martda Putin Rusiya Parlamenindən icazə alaraq Krıma ordu çıxararaq ilhaq etməyə nail oldu (62).

Bunun Azərbaycanın xarici siyasətinə təsiri məsələsində yenə böyük dövlətlərin yanaşması məsələsinə gəlirik. ABŞ və müttəfiqləri Krımın Ukraynadan ayrılmasına sərt şəkildə qarşı çıxırlar və bunu həm Ukraynanın ərazi bütövlüyünün, həm də beynəlxalq hüququn pozuntusu pozulması olaraq görürlər. Bu mövzuda fikirləri o qədər sabitdir ki, bununla əlaqəli olan hər iştirakçıya qarşı sanksiya tətbiq etməkdən belə çəkinməmişlər. Lakin eyni fikirlər Krım məsələsi ilə bənzərlikləri olan Dağlıq Qarabağ problemi üçün deyilə bilməz. Krımla bağlı irəliləyişlər göz önündə olduğu halda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə olan əsassız yanaşma da göz önündədir. Münaqişədə işğalçı tərəf bəlli olduğu halda, həmin tərəfin Azərbaycanın ərazi bütövlüyünü pozmasına, heç kimin tanımadığı "Dağlıq Qarabağ Respublikası"na tam dəstək verməsinə baxmayaraq, Ermənistan heç bir zaman Rusiyanın qarşılaşdığı sanksiyalarla qarşılaşmamışdır. Aİ vəABŞ heç bir beynəlxalq təşkilatın qərarı olmadığı halda Rusiya kimi böyük gücü cəzalandırmağı gözə alarkən, Ermənistan kimi kiçik və zəif ölkəni  cəzalandırmaq istəmir. Hətta erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını nəzərdə tutan BMT qətnamələrinə qarşı çıxmaqla problemin sülh yolu ilə həlli səylərinə zərər verməkdədirlər (70). Göründüyü kimi əsas  məsələ onların geosiyasi prosesləri obyektiv və sabit meyarlarla deyil, "ikili standartlar"la qiymətləndirməsidir. ABŞ və müttəfiqləri Dağlıq Qarabağ məsələsində də işğalçılıq siyasətini pisləyən bu mövqeni tutsaydılar, erməni işğalçıları bütün bunları edə bilməzdilər (65).

2015-ci il noyabrın 24-də Türkiyə hərbi hava qüvvələrinə məxsus F-16 qırıcı təyyarəsinin Türkiyə ilə Suriya sərhədi yaxınlığında Rusiyanın SU-24 təyyarəsini vurması daha bir siyasi böhran idi. Xatırladaq ki, Rusiya Suriya münaqişəsinə müdaxilə edən bir neçə ölkədən biridir. Türkiyə Silahlı Qüvvələrinin açıqladığı radar analizinə görə rus təyyarəsi Türkiyənin hava sərhədini pozub. Ona 5 dəqiqə ərzində 10 dəfə xəbərdarlıq edildiyi bildirilib. Rusiya Müdafiə Nazirliyi isə təyyarənin Suriya hava sərhədi daxilində uçduğunu bildirib (57). Bu hadisə mövcud əlaqələri gərginləşdirsə də, Qərbin buna münasibəti, iki ölkə arasında sonrakı əlaqələrin necə

olacağı və Azərbaycanın xarici siyasətində təzahürü məsələsi çox suallar doğurdu. ABŞ və Avropanın böyük dövlətləri Türkiyənin hava sərhədlərini qorumasını haqlı hesab edərək ona dəstək verdilər (86).

Dünya dövlətləri eyni zamanda münasibətlərin yenidən qurulmasını mümkünsüz hesab edirdilər. Lakin iki ölkə əlaqələrində normallaşma müddəti başlamışdır. Hətta Türkiyədəki hərbi çevriliş cəhdindən sonra R.T.Ərdoğan ilk rəsmi səfərini Rusiyaya etmişdi. İki ölkə arasında əlaqələrə təkan verən amil iqtisadi, ticari və enerji əlaqələridir. Rusiya yenə də Türkiyənin başlıca ticarət partnyorlarındandır. İki dövlət başçısının Sankt-Peterburqda baş tutan görüşməsində 5 əhəmiyyətli qərar qəbul edildi. Bu qərarlara Türkiyəyə olan embarqoların qaldırılması, "Türk axını" layihəsinin həyata keçirilməsi kimi qərarlarla yanaşı regional mövzuların ələ alınmasında Türkiyə-Rusiya-Azərbaycan üçlü mexanizminin qurulması da aiddir. Layihənin adındakı "mexanizm" sözü Türkiyə-Rusiya-Azərbaycan üçlü zirvəsinin daim fəaliyyət göstərən qurum olacağından xəbər verir. Bu layihənin baş tutması Azərbaycanın Xəzər və Qara dəniz regionlarında siyasi və iqtisadi rolunun, Azərbaycan sənayesinin və bütünlükdə iqtisadiyyatının güclənməsi deməkdir (72).

2016-cı il iyulun 15-də Türkiyədə özlərini "Yurdda sülh şurası" adlandıran bir qrup əsgər tərəfindən hərbi çevrilişə təşəbbüs edildi. İstanbuldakı Boğaziçi körpüsünün bir qrup polis tərəfindən bağlanması ilə başlayan çevriliş cəhdi Türkiyə Böyük Millət Məclisində 50-yə qədər millət vəkili olduğu vaxt F-16 döyüş təyyarələri tərəfindən parlament binasının 4 dəfə bombalanması ilə müşahidə olundu. Prezident sarayına zərbə endirmək cəhdi müvəffəqiyyətsiz oldu. Hətta Muğlanın Mərmərə bölgəsində bir oteldə olan prezident Rəcəb Tayyib Ərdoğana qarşı sui-qəsd cəhdi də olmuşdu. 16 iyul səhəri çevriliş Türk Silahlı Qüvvələri tərəfindən reallaşdırılan əməliyyatlar nəticəsində çevriliş cəhdinin qarşısı alındı, əsgərlər silahları ilə birlikdə təslim oldu. 21 iyulda Milli Təhlükəsizlik Şurasının iclasından sonra Türkiyə Böyük Millət Məclisi tərəfindən konstitusiyanın 120-ci maddəsinə əsasən 3 aylıq fövqaladə hal elan olundu (76).

Diqqət çəkən məqam bəlkə də mövqeləri dəyişdirə biləcək dəhşətli prosesin baş verməsi və yenə Qərbin özünəməxsus münasibətidir. Türkiyə Qərbdən gözlədiyi

dəstəyi görmədi. Heç bir Aİ üzvü həmrəylik göstərərək Türkiyəyə getmədi. Rusiya prezidenti Putin və İran İslam Respublikasının prezidenti Ruhani çevriliş cəhdini dərhal qınadığı halda, ABŞ prezidenti B. Obamanın 3 gün gecikməsi ən sadə və tipik nümunədir. Çevriliş cəhdi türklər üçün sədaqət imtahanı idi. Bu imtahanda isə Qərb "müvəffəqiyyətsiz"liyə uğradı. Bu barədə Economist jurnalı "Qərbin əleyhdarları artır" başlıqlı məqalədə çevriliş cəhdinə Amerika və Avropanın "ikili yanaşması"nın da təsirli olduğunu bildirdi. Məqalədə sırf Qərbin çevriliş cəhdinə reaksiyası yer almışdır (67).

Göründüyü kimi ABŞ və Aİ timsalında - Qərbin bu müasir geosiyasi proseslərə təsiri, müsəlman dövlətlərə qarşı sərgilədiyi davranış, hadisələrə öz maraqlarından yanaşması bütün bu proseslərin yaxından izləyicisi kimi Azərbaycanın xarici siyasətinə təsirsiz ötüşmür. Belə ki, hazırda Rusiya ilə Azərbaycanın yaxınlaşmasında yeni bir mərhələ başlanmışdır. Lakin buna fərqli bir addım kimi baxılmır. Ona görə ki, ölkələrimiz arasında həmişə çox sıx, konstruktiv, qarşılıqlı hörmətə əsaslanan münasibətlər olub. Azərbaycan və Rusiya arasında dil baryeri yoxdur. Qarşıda ortaq məsələlər, eyni zamanda müxtəlif resurslarla zəngin olan Xəzəryanı ərazilərin mənilsənilməsi məsələsi durur. Azərbaycan Rusiyanın 85 regionundan 72-si ilə sıx iqtisadi əlaqələrə malikdir. Hazırda dünyada yaranmış iqtisadi vəziyyət, yəni enerji daşıyıcılarının ucuzlaşması və həmçinin qeyri-neft sektorunun inkişafı kursunu davam etdirmək zərurəti həm Rusiyanın, həm də Azərbaycanın marağında olan məsələdir. Bununla bağlıdır ki, əmtəə dövriyyəsinin azalması məsələsi İlham Əliyevlə Vladimir Putin arasında Sankt-Peterburqda baş tutan görüşdə müzakirə olunub. Rusiya, Qazaxıstan, Türkiyə və İran daha çox Azərbaycanın sülhsevər mövqeyi və mehriban qonşuluq siyasəti sayəsində ümumi təmas nöqtələri tapır. Azərbaycan mehriban qonşuluq və kooperasiyanın ziddiyətlər və təcridlənməkdən daha məhsuldar olduğunu sübut edir (28).

Həmçinin Azərbaycan-İran əlaqələri də yeni mərhələdə uğurla inkişaf edir. Prezident İlham Əliyev bu münasibətləri belə özətləmişdir: "Bizim birliyimiz ölkələrimiz və bölgənin gələcəyi üçün lazımdır." Rəsmi Tehranın da Azərbaycanla əməkdaşlığa olan marağı təkcə ölkəmizin malik olduğu geostrateji mövqe və zəngin

karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklərə fəal inteqrasiyaya söykənən dövlətçilik kursunun dönməzliyi ilə şərtlənir. İlham Əliyev regiondakı qəliz və ziddiyətli proseslər fonunda xarici siyasətdə İranla əməkdaşlığın prioritet istiqamətlərdən biri olduğunu təsdiqləmişdir. Azərbaycan bəzi Qərb dövlətlərinin İrana qarşı artan təzyiqləri səbəbindən rəqabət meydanı olmaq istəmir və qonşu dövlətlərlə mehriban qonşuluq münasibətlərinin tərəfdarıdır. İran İslam Respublikasının prezidenti Həsən Ruhaninin Azərbaycana rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafının göstəricisidir. Bugün Azərbaycanın idxal və ixrac əməliyyatları apardığı ölkələrdən biri olaraq, İran ilə ticarət dövriyyəsinin həcmi də ildən ilə artmaqdadır (15).

Eyni zamanda 2016-cı il avqustun 12-də Azərbaycan, Rusiya və İran arasında imzalanan Bakı bəyannaməsi regionda sülhə, sabitliyə xidmət edən mühüm sənəddir. Bu bəyannamədə regional, beynəlxalq məsələlər üzrə qarşılıqlı faydalı əməkdaşlığın daha da gücləndirilməsi, bərabərlik, bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında dövlətlərarası əlaqələrin daha da inkişaf etdirilməsində qətiyyətli addımların atılacağı qeyd edilmişdir. Eyni zamanda qərara gəlinmişdir ki, qarşılıqlı maraq kəsb edən əməkdaşlıq sahələri üzrə müvafiq işçi qruplar yaradılsın. Bakı Bəyannaməsində həmçinin mövcud vəziyyətin inkişafı və terrorçuluğa qarşı səmərəli mübarizə tədbirlərinin hazırlanması üzrə fikir mübadiləsi aparmaq üçün iki və üçtərəfli məsləhətləşmələrin vacibliyi qeyd edilmişdir(61).

Yaxın Şərqdə baş verən çevrilişlər, Ukraynanın ərazi bütövlüyünün pozulması, Rusiya və Qərb arasında dərinləşməkdə davam edən qarşıdurmanın olması Azərbaycana və onun xarici siyasətinə də təsirsiz qalmadı. Göründüyü kimi, bütün bu müasir geosiyasi proseslər fonunda Azərbaycana qarşı Qərbin ikili standartlar siyasəti xarici siyasətimizi heç də zəiflətmir. Əksinə, Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənir və region dövlətləri ilə əməkdaşlığının intensivliyi artır. Qərbin paralel olaraq Rusiya, Türkiyə və İran kimi dövlətlərə qarşı da qeyri-obyektiv mövqedən çıxış etməsi, bu ölkələrlə münasibətdə Azərbaycanın rolunu və əhəmiyyətini artırır ki, bu da ölkəmizin regionda mövqelərini möhkəmləndirməsi üçün daha uğurlu perspektivlər yaradır.

# FƏSİL 2. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ÇAĞDAŞ PRİORİTETLƏRİ

## 2.1. Azərbaycanın xarici siyasətində Latın Amerikası ölkələri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin siyasi əsasları

Azərbaycan Respublikasının Qərbdə- ABŞ və Avropanın kontinental təsisatlarının fəaliyyəti fonunda qarşılaşdığı qərəzli mövqe, "ikili standartlar" siyasəti, Qərblə Şərq, eləcə də Şimalla Cənub arasında mühüm enerji və nəqliyyat dəhlizinə çevrilmiş müstəqil Azərbaycan dövlətinin xarici siyasətində yeni meyillərin yaranmasını şərtləndirən amillərdəndir. Tədricən ölkəmiz özü üçün yeni olan məkanlara inteqrasiya edir və bununla Azərbaycan diplomatiyasının coğrafiyası daha da genişlənir.

Prezident İlham Əliyev Azərbaycanın yeritdiyi xarici siyasət kursunun əsas prinsiplərini bəyan etdi. Beynəlxalq arenada, istər ikitərəfli, istər çoxtərəfli formada əməkdaşlıq bərabərhüquqlu münasibətlər üzərində qurulmalıdır.Prezident diplomatik korpus qarşısında qısa dövr, lakin uzunmüddətli perspektiv üçün konkret vəzifələr qoydu (1).Birinci istiqaməti, ikitərəfli əlaqələrdə "Yeni Qitələrə Çıxış" strategiyası adlandırmaq mümkündür. Çünki Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin əhatə dairəsinin genişləndirilməsi üçün indiyə qədər əlaqələrimizin çox da intensiv olmadığı ölkələr hədəf götürülmüşdür. Xüsusilə də BMT TŞ-dakı səsvermədə bizi dəstəkləyən 155 ölkə ilə daha fəal əlaqələr qurmaq nəzərdə tutulmuşdur (60). Bu isə ilk növbədə, Latın Amerikası ölkələri ola bilər. Diplomatik korpusun qarşısına qoyulan vəzifələr arasında ikinci istiqamət Azərbaycan şirkətlərinin xaricdəki fəaliyyətlərini stimullaşdırmaqdır. Üçüncü istiqamət olaraq səfirliklərin qeyri-hökumət təşkilatları (QHT) və media qurumları ilə daha fəal əlaqələr qurmasıdır. Burada başlıca məqsəd isə hazırda Azərbaycanın cəlb olunduğu informasiya müharibəsində ölkəmizin mövqelərinin gücləndirilməsidir (56).

2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilən Azərbaycan Respublikası qlobal məsələlərin həllində, dünyada sülh və təhlükəsizliyin təmin olunmasında yaxından iştirak edərək beynəlxalq münasibətlər sisteminin fəal iştirakçısı imicini möhkəmləndirmişdir. Elə həmin il Azərbaycan bloklara Qoşulmama Hərəkatına daxil olmaqla öz xarici siyasətinin yeni vektorlarını müəyyənləşdirdi. Nazirlər Kabinetinin 2012-ci ilin ilk doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına, eləcə də qarşıda duran vəzifələrə həsr olunmuş

iclasındakı nitqində dövlət başçısı prezident İlham Əliyev əhəmiyyət kəsb edən məsələyə- Latın Amerikası dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin vacibliyinə toxunaraq demişdir: "Biz indi dünyada yeni tərəfdaşlar əldə edirik və görürük ki, əməkdaşlıq üçün ənənəvi olmayan qitələrdən də Azərbaycana böyük maraq vardır. Xüsusilə Latın Amerikası regionundan. Biz də Latın Amerikası ölkələri ilə çox sıx əlaqələr qururuq. Görürük ki, bu əlaqələr çox səmimidir, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və dostluq əsasında qurulur. Hər bir ölkə ilə münasibətlər məhz bu prinsiplər üzərində qurulmalıdır." (55). Bu fikir regionun Azərbaycan Respublikasının xarici siyasətində nə dərəcədə önəmli olduğunu bir daha təsdiq edir.

Azərbaycan Respublikasının diplomatları qarşısında qoyulan əsas vəzifələrdən biri elə Latın Amerikası ölkələri ilə hərtərəfli əlaqələrin inkişaf etdirilməsidir. Məhz bu amil regionun Azərbaycanın xarici siyasətində mühüm rolu olduğunu göstərir (44). Azərbaycan ilə Latın Amerikası regionu ölkələri arasında əlaqələr 2010-cu ildən yüksək inkişaf dövrünə qədəm qoyub. Bu illər ərzində Azərbaycanın region ölkələrində və həmin ölkələrin Azərbaycanda diplomatik nümayəndəlikləri təsis edilmiş, çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilmiş və ikitərəfli sazişlər imzalanmışdır. Qeyd etməliyik ki, son illərdə Argentina, Brazilya, Uruqvay, Çili, Peru kimi Latın ölkəsində Azərbaycanın səfirliyi fəaliyyət göstərir. Belə ki, regionun aparıcı dövləti kimi, Azərbaycanın 2007-ci ildə Kubada, 2009-cu ildə Meksikada, 2010-cu ildə Argentinada, 2013-cü ildə Braziliyada səfirlikləri, 2014-cü ildə Kolumbiyada, Uruqvayda və Çilidə, 2015-ci ildə isə Peruda diplomatik ofisləri təsis olunmuşdur. Azərbaycanda isə 2008-ci ildə Kuba, 2010-cu ildə Braziliya, 2012-ci ildə Argentina, 2014-cü ildə Meksika və Kolumbiyanın səfirlikləri fəaliyyətə başlayıb (16). Eyni zamanda, Argentina, Uruqvay, Çili, Paraqvay, Meksika, Kolumbiya, Braziliya, Peru və Kuba parlamentlərində Azərbaycanla parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir.2013-cü ilin 4 sentyabr tarixində Braziliya Parlamentinin Deputatlar Palatasında Braziliya-Azərbaycan Dostluq Qrupu yaradılmışdır. Azərbaycan Milli Məclisində Argentina, Uruqvay, Meksika, Braziliya, Çili, Kolumbiya, Kuba və Peru parlamentlərarası işçi qrupları fəaliyyət göstərir.2012-ci

ildə Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Braziliya Parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır(10).

Ötən beş il ərzində qeyd olunan ölkələr ilə parlament nümayəndə heyətlərinin çoxsaylı qarşılıqlı səfərləri həyata keçirilib. Parlament sədrləri səviyyəsində Uruqvay Baş Assambleyasının Deputatlar Palatasının sədri Herman Kardoso 2013-cü ilin may ayında Azərbaycanda səfərdə olub. Həmçinin, Kosta-Riko, Nikaraqua kimi ölkələrinin də xarici işlər nazirlərinin Azərbaycana səfərləri baş tutub. 22 oktyabr 2016-cı ildə Venesuela Respublikasının Prezidenti Nikolas Maduro Azərbaycana səfər etmişdi.Azərbaycanla Latın Amerikası regionu ölkələri arasında siyasi, iqtisadi, mədəni, ticari, elmi-akademik və digər sahələr üzrə ümumilikdə 60-a yaxın müqavilə və saziş imzalanmışdır (16).

Azərbaycanın xarici siyasətində əməkdaşlığın prioritet istiqamətlərindən biri kimi istər siyasi, istər iqtisadi cəhətdən nüfuz və çəkiyə malik Latın Amerikası regionuna nəzər salaq. Latın Amerikası Cənubi Amerika materikini bütövlükdə, Meksika və ondan cənubda yerləşən ölkələri və Karib hövzəsindəki ada dövlətləri əhatə edir. Bura daxil olan ölkələr bir-birindən ərazisinin ölçüləri, təbii şəraiti, əhalisi, əmək və təbii resursla təmin olunma səviyyəsinə görə olduqca fərqlənirlər. Əhalisinin əksəriyyətinin danışdığı roman dil qrupunun əsasını latın dili təşkil etdiyindən Latın Amerikası adını almışlar. 30-dan çox ölkənin daxil olduğu bu region olduqca əlverişli coğrafi mövqeyə malik olmaqla yanaşı, uzun müddət Avropada baş verən müharibələrdən də aralı olmuşdur (26, s.3). Latın Amerikası iqtisadi və siyasi cəhətdən fərqlənən bir regiondur. Belə ki, region ölkələri arasında iqtisadi inkişaf və adambaşına milli gəlir olduqca müxtəlifdir. Böyük İyirmiliyin tam hüquqlu üzvü, sürətlə inkişaf edən Braziliya, Argentina, Meksika ilə yanaşı Venesuela, Çili, Uruqvay da adambaşına düşən milli gəlirə görə bir sıra Cənubi Avropa ölkələrinin səviyyəsinə çatmış və bəzilərini belə ötüb keçmişlər (26, s.6). Regionun aparıcı ölkələrindən olan Brazilya BMT TŞ-nın daimi üzvlərinin sayının artırılması istiqamətində aparılan danışıqlarda potensial iddiaçılardan biridir. Özünün müxtəlif təyinatlı təşkilatlarına malik regionda Latın Amerikası ölkələrinin Parlamentlər Assosiyasiyası, iqtisadi birlikləri fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, Latın Amerikası erməni diasporunun ən güclü olduğu regionlardan biridir. Yetəri qədər rahat yaşayan erməni icması Azərbaycan Respublikasının ərazisinin 20%-ni işğal edən, ərazinin aborigen əhalisi olan azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım törədən, mədəni abidələrimizi məhv edən, tariximizi saxtalaşdırmağa cəhd edən bir dövlətin bütün bu cinayətlərini ört-basdır etməyə çalışır. Digər tərəfdən, ölkəmizin nüfuzuna, o cümlədən region dövlətləri ilə münasibətlərinə xələl gətirmək üçün davamlı olaraq təxribat xarakterli işlər görürlər.Bütün dünyada fəaliyyət göstərən erməni lobbisinin ən əsas məqsədi Ermənistanın və Dağlıq Qarabağ separatçılarının maraqlarını qorumaqdan ibarətdir. Bu istiqamətdə erməni lobbist təşkilatların əsas hədəfi, Azərbaycandır.Ermənistanın Azərbaycana təcavüzü başlayan kimi erməni lobbisi də öz fəaliyyətini genişləndirdi. Bu fəaliyyətin kökündə isə, Azərbaycanın beynəlxalq imicinə zərər yetirmək və Dağlıq Qarabağ münaqişəsində Azərbaycana təcavüzkar dövlət statusu qazandırmaqdan ibarət olub.Erməni lobbisi siyasi məqsədlərinə nail olmaq üçün müxtəlif ölkələrdə fəaliyyət göstərir. Bu siyahıya ABŞ, Argentina, Efiopiya, Uruqvay, Rusiya, Suriya, Fransa kimi dövlətləri daxil edə bilərik (29).

Buna bir neçə konkret faktlarla nümunə göstərmək olar: Cənubi Amerikada yerləşən Uruqvayı erməni diasporunun ən güclü olduğu ölkə adlandırmaq olar. Belə ki, 1965-ci ildə və 2004-2005-ci illərdə Uruqvay parlamentində dünyada qondarma “erməni soyqırımı”nı tanıyan qanun qəbul olunub. Bundan sonra dünyanın 20-dən artıq ölkəsi saxta soyqırımı tanıyıb (36). Ölkənin paytaxtında isə qondarma soyqırımın “qurban”larının xatirəsinə abidə ucaldılmışdır. Sahəsinə və əhalisinin sayına görə Cənubi Amerikada Brazilyadan sonra ikinci yeri tutan Argentinada 320 minə yaxın erməni yaşayır. Bu ölkədə də hakimiyyətin hər üç qolu qondarma “erməni soyqırımı”nı tanıyıb. Hətta paytaxt Buenos-Ayres şəhərinin bələdiyyəsi erməni mədəniyyət mərkəzinə qondarma soyqırım muzeyinin inşası üçün torpaq sahəsi də ayırıb. Lakin Azərbaycan Respublikasının çevik və uğurlu xarici siyasət strategiyası ilə bu regionda da  erməni təbliğatının qarşısı alınmaqdadır. Bunun nəticəsidir ki, Argentina prezidenti xanım Kristina Fernans De Kirçner ölkəsində səfərdə olan Ermənistan prezidenti Serj Sarkisyanı qəbul etməkdən imtina etmişdi. Latın

Amerikasının digər bir ölkəsi olan Paraqvayda da erməni diasporu geniş fəaliyyət göstərir (16).Venesuela parlamentində də uydurma erməni soyqırımının tanınması haqqında qərar qəbul etmişdir. Eləcə də Çili və Brazilya kimi ölkələri də qondarma soyqırımı tanıyan ölkələr sırasında yer alır (52).

Bütün bu məqamlar Azərbaycanı öz tutduğu yoldan, bu həyati vacib fəaliyyətdən ayırmır. Bu məqsədlə, bəşəriyyətin üzləşdiyi ən dəhşətli faciələrdən biri olan Xocalı soyqırımının tanıdılması və anılması, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində bir sıra işlər görülmüşdür.Meksika və Kolumbiya parlamentlərində isə hətta Xocalı soyqırımının tanıdılması ilə bağlı qətnamə qəbul edilməsinə nail olunub.Bu ölkələrlə yanaşı Panama, Peru, Honduras, Qvatemala, Paraqvay kimi ölkələrdə də Xocalı soyqırımının tanıdılması istiqamətində proseslər başlamışdır. Qeyd etmək vacibdir ki, bəşəriyyətin faciəsi olan Xocalı soyqırımı Hondurasda milli qanun səviyyəsində tanıdılır(2).

Bütün bunlar onu göstərir ki, Azərbaycanın Latın Amerikası regionunda çevik xarici siyasət həyata keçirə bilməsi üçün region ölkələri ilə iqtisadi əlaqələrin qurulması vacibdir. Azərbaycanın Latın Amerikası regionu ilə münasibətləri yalnız buradakı erməni diasporasının fəaliyyəti ilə bağlı deyildir. Birinci ona görə ki, bu regionda dünyanın ən güclülərindən olan və Azərbaycanla sıx əməkdaşlıqda olan yəhudi lobbisinin də fəaliyyəti genişdir. Latın Amerikasındakı yəhudi gücünü ümumi olaraq rəsmi və qeyri-rəsmi lobbi olmaq üzrə iki yerə ayırmaq mümkündür. Burada kiçik-böyük yüzlərlə yəhudi təşkilatı fəaliyyət göstərir olmaqla birlikdə, onların çox az bir qismi rəsmi və müstəqil olaraq İsrail maraqları üçün çalışır. Bu təşkilatların təhsil fəaliyyətlərindən bəzilərinin də siyasi nəticələri olmaqdadır. Məsələn bəzi təşkilatlar, seçilmiş bəzi kəsləri ya da namizədləri müxtəlif mövzularda çıxış etməsi üçün dəvət edir.İkinci səbəb, iqtisadiyyatla bərabər siyasətin belə qloballaşdığı dünyada təcrid olunmaqla mövcudluq mümkün deyil. Azərbaycan Respublikası da hələ müstəqillik qazandıqdan sonrakı dövrdə belə çox fəal xarici siyasət xətti ilə seçilən, hər bir prioritetini kompleks şəkildə nəzərdən keçirən və bu prioritetlərdə hər bir sahəni birləşdirən ölkələrdəndir (50).

Siyasi münasibətlərin normal vəziyyətə və tarazlı müstəviyə gətirilməsi üçün iqtisadi əməkdaşlığın gücləndirilməsi daha zəruridir. İlk öncə region ölkələri ilə Azərbaycan arasında mövcud olan iqtisadi əlaqələri nəzərdən keçirək. Hər hansı iki ölkənin iqtisadi münasibətlərə girə bilməsi üçün hər iki ölkənin iqtisadiyyat sahəsində yetəri qədər təcrübəsi və statistik göstəricilərə əsaslanan ticari uğurları olmalıdır. Məhz bu səbəbdən Latın Amerikası regionunun beynəlxalq iqtisadiyyatda tutduğu mövqe konkret faktlarla göstərilməlidir. Aparılan təhlillər göstərir ki, əksər inkişaf etmiş Latın Amerikası ölkələri qlobal böhrana qədər əhəmiyyətli beynəlxalq valyuta ehtiyatları toplamışdır. Bu ehtiyyatlardakı artım onun kifayətlilik səviyyəsini əksər hallarda dəfələrlə üstələmişdir. Məlumdur ki, dünya iqtisadiyyatının 10%-i Latın Amerikasının payına düşür. Beynəlxalq iqtisadi reytinq təşkilatlarının dünya ölkələrinin mövqeyinə bir sıra meyarlara görə təsnifatlar verərkən, Latın Amerikası regionuna qısa zaman kəsiyində yüksək iqtisadi inkişafla sıçrayış meyarı aid edilmişdir (50). Yüksək iqtisadi inkişaf dinamikası ilə regionda yeni sənaye ölkələri formalaşmışdır. Azərbaycan iqtisadiyyatına da şamil edilən bu amil iki ölkəni yaxınlaşdıran, bu sahədə əlaqələrini mümkün edən faktorlardandır.

2015-ci il statistik göstəricilərinə əsasən Azərbaycanın xarici ticarət dövriyyəsində bu ölkələrin payı 0,9-1%-ə yaxın idi. Bu göstəricilər regionun ayrı-ayrı ölkələrinə şamil edilsə, Brazilyanın Azərbaycandakı xarici ticarət dövriyyəsinin həcmi 0,54%, Argentinanın xarici ticarət dövriyyəsindəki həcmi 0,08%, Kubanın ticari həcmi 0,13%, Venesuella isə 0,05% təşkil edir. Bundan başqa iki tərəf arasında idxal və ixrac əməliyyatlarında da qeyri-bərabərlik müşahidə olunur. Regionun güclü ölkələrindən hesab olunan Brazilyanın məhsullarının Azərbaycana ixracı 82 milyon ABŞ dolları təşkil etdiyi halda, Azərbaycan məhsullarının Brazilyaya ixracı 0,14 milyon ABŞ dollarıdır. Azərbaycan Dövlət Gömrük komitəsinin verdiyi məlumata görə, Latın Amerikasının söz sahibi olan digər ölkəsi- Argentinanın məhsullarının Azərbaycana ixracı 20 milyon ABŞ dolları olduğu halda, Azərbaycan məhsullarının Argentinaya ixracı 0,12 milyon ABŞ dollarıdır (81). Lakin bu da nəzərə alınmalıdır ki, Latın Amerikası müstəqil Azərbaycan Respublikası üçün tamamilə yeni regiondur. Regionla Azərbaycan arasında olan çox böyük coğrafi uzunluğu nəzərə

alsaq, xarici ticarət dövriyyəsinin həcminin bu qədər kiçik olması çox da təəccüb doğurmur. Məlumdur ki, inteqrasiya üçün coğrafi yaxınlıq, dil və din ümumiliyi, tarix və mədəni yaxınlıq kimi xüsusiyyətlər vacib şərtlərdən hesab olunur. Bu şərtlərdən heç birində ortaq xüsusiyyətin olmadığı şəraitdə münasibətlərin qurulması çox sürətli istiqamətin götürülməsini tələb edir. İqtisadi münasibətlərin qurulmasının nəticəsində isə Azərbaycan Respublikasının bu və ya digər regionlarda investisiya alan ölkədən, investisiya yatıran ölkəyə çevrilməsi prosesi sürətlənə bilər. Azərbaycanın uğurlu və balanslı siyasət strategiyası ilə siyasi münasibətlərin möhkəmlənməsinə yönəlmiş bu istiqamət çox uğurla həyata keçirilməkdədir. Belə ki, Azərbaycanla Latın Amerikası ölkələri arasındakı qarşılıqlı ticarət dövriyyəsi 2014-cü il ərzində 300 milyon ABŞ dolları təşkil etmişdir (81).

Bu regionda Azərbaycanın ən böyük ticarət tərəfdaşı Braziliyadır. Braziliyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi birmənalıdır. Bu ölkə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və sülh yolu ilə həll edilməsinin tərəfdarıdır (16). 2016-cı il dekabrın 15-də Azərbaycan ilə Brazilya arasında “Ticarət və investisiya sahəsində əməkdaşlıq” haqqında anlaşma memorandum imzalanıb. Memoranduma əsasən, iki ölkə enerji, infrastruktur, kənd təsərrüfatı, innovasiyalar və turizm sahələrində əməkdaşlıq edəcək, həmçinin birgə işçi qrupu yaradacaqlar. Ölkələr arasında ticarət dövriyyəsinin statistik göstərici 2015-ci ildə 120 milyon ABŞ dolları idisə, 2016-ci ilin ilk doqquz ayının açıqlamalarına görə kəskin yüksəlişlə 150 milyon ABŞ dolları təşkil etmişdir.Azərbaycanın enerji sahəsindəki uğurları barədə məlumatlı olan Brazilya Azərbaycan ilə bu istiqamətdə də əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu dəfələrlə bildirmişdir(91).

Latın Amerikası regionunun bir digər ölkəsi Argentina ilə də münasibətlər inkişaf dövrünə qədəm qoymuşdur. 2012-ci il iyulun 27-də iki ölkə arasında “Ticarət və İqtisadi əməkdaşlıq” haqqında saziş imzalanmışdır. Bununla iki ölkədə səfirliklər arasında əlaqələrin qarşılıqlı qurulması, qarşılıqlı səfərlərin təşkil olunması, habelə biznes forumlarının keçirilməsi baş tutmuş və Azərbaycanla Argentina arasında əməkdaşlığın genişləndirilməsi üçün hərtərəfli imkanlar açılmışdır. Beynəlxalq

təşkilatlar çərçivəsində də əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb. Ticarət-iqtisadi, elmi sahələrdə əlaqələrin gücləndirilməsi imkanları, enerji, kənd təsərrüfatı, aqrobiznes, əczaçılıq, tikinti kimi sahələrdə də birgə layihələrin həyata keçirilməsi dəfələrlə müzakirə olunmuşdur. Əvvəlki illərin statistik göstəriciləri ilə müqayisədə Azərbaycan Respublikası ilə Argentina arasında xarici ticarət dövriyyəsinin həcminin 62% artdığı müşayət olunur. Bugün iki ölkə arasında ticarətin miqyası daha da böyüməyə və genişlənməyə davam edir (82). Argentinanın xarici işlər naziri Hektor Timerman fikirləri ilə bunu təsdiqləyir: “ Azərbaycan sahib olduğu zəngin neft və təbii qaz ehtiyatları ilə iqtisadiyyatını yüksək templə inkişaf etdirir. Argentina kimi büdcə kəsri olan bir ölkənin isə bu təcrübədən yararlanmağa ehtiyacı vardır.” (81).

Tarixi İpək yolu üzərində yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ölkə kimi tanınmışdır. Məlumdur ki, 2016-cı il Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə “Multikulturalizm ili” elan edildi. Bu Azərbaycanın tolerantlıq prinsiplərinə hər zaman sadiq qalmasının bariz nümunəsidir (33). Azərbaycan mədəniyyətlərarası dialoqda model ölkədir (95). Məhz bu sahədə də Latın Amerikası ilə Azərbaycan arasında əlaqələrin qurulması müzakirə olunan məsələlərdəndir. Bu məsələ 2016-cı il aprelin 26-da Bakıda keçirilmiş BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində ölkəmizdə səfərdə olan ABŞ-dan olan beynəlxalq münasibətlər və beynəlxalq təhlükəsizlik məsələləri və Latın Amerikası üzrə ekspert, jurnalist Piter Teyslə görüş zamanı müzakirə olundu. Görüşdə, Azərbaycanda multikultural təhlükəsizliyin prinsiplərinin- ölkə daxilindəki müxtəlif konfessiyalara siyasi münasibətin bərabər şəkildə yönəlməsi, mövcud olan milli müxtəlifliyin qorunmasına yönəlmiş dövlət qayğısı, ölkədə yaşayan bütün xalqların və etnik qrupların mədəni dəyərlərinin qorunmasına dövlət və cəmiyyət tərəfindən dəstək göstərilməsi olduğu xüsusilə qeyd olunmuşdu (17).

Latın Amerikası regionu ilə Azərbaycan Respublikası arasında sosial-humanitar sahədə də müəyyən əlaqələr qurulmaqdadır. Məlumdur ki, Azərbaycan

artıq yardım alan ölkədən donor ölkəyə çevrilib. Beynəlxalq miqyasda bu istiqamətdə müxtəlif yardım layihələri həyata keçirir. Bilindiyi kimi, 2011-ci ildən Azərbaycan Xarici işlər Nazirliyi nəzdində Azərbaycan Beynəlxalq inkişafa yardım agentliyi fəaliyyət göstərməkdədir. Bu agentlik çərçivəsində ümumilikdə 20-dən çox, Latın Amerikası regionu ölkələrindən isə bir neçəsində humanitar missiyalar həyata keçirilir. Bu missiyalar regionun təbii fəlakətlərdən çox böyük ziyan görən zəif inkişaf etmiş ölkələrində müxtəlif layihələr kontekstində həyata keçirilir və həmçinin öz səmərəli nəticəsini verməkdədir(6).

İnformasiya, onun təhlükəsizliyinin təmin olunması beynəlxalq münasibətlərin ən aktual məsələlərindən hesab olunur. Bu sahədə Azərbaycan dünya dövlətlərinin bir neçəsi ilə yaxından əməkdaşlıq edir və bu qarşılıqlı əlaqələr günü-gündən genişləndirilir. Latın Amerikası regionu ölkələri ilə informasiya sahəsində də birgə fəaliyyətin daha da genişləndirilməsi məsələləri müzakirə olunur. Hətta bununla bağlı 2014-cü il iyunun 3-də Argentinanın "TELAM" Agentliyinin İnstitusional əlaqələrin inkişafı üzrə meneceri, Latın Amerikası ölkələri İnformasiya Agentlikləri Birliyinin (ULAN) sədri Xuan Manuel Fonruge, Argentinanın ölkəmizdəki səfirliyinin konsulu Qabriel Alexandro Xorquero iyunun 3-də Azərbaycan Dövlət Teleqraf Agentliyində (AzərTAc) olmuşdular. Sədr Xuan Manuel Fonruge yaxında ölkəsində "ANSUR" informasiya saytının fəaliyyətə başlayacağını diqqətə çatdırmışdı. Bu saytın eyni zamanda Braziliya, Portuqaliya və digər ölkələrə çıxışının olacağını bildirən Xuan Manuel Fonruge saytda ispan, ingilis dili ilə yanaşı, Azərbaycan dilində də şöbənin açılacağını və ölkəmizlə bağlı ən son yeniliklərin, məlumatların orada yer alacağını bildirmişdir. Azərbaycanın turizm imkanlarının təbliğ olunması baxımından saytın əhəmiyyətini söyləyən Xuan Manuel Fonruge argentinalı oxucuların bunun vasitəsilə Azərbaycan haqqında yeniliklərlə tanış olmaq imkanı əldə edəcəklərini də xüsusilə vurğulamışdı. Tərəflər növbəti illərdə də hər iki agentlikdə müxbir məntəqələrinin açılacağı təqdirdə əlaqələrin daha da gücləndirilməsi məqsədilə hər cür şəraitin yaradılmasının mümkünlüyünü qeyd etmişlər (14).

Qarşılıqlı əlaqələrin əhəmiyyətliliyini isə bir neçə məqamla belə göstərmək olar: Azərbaycanın neft, qaz emalı sahəsində qazandığı təcrübənin bu ölkələrlə

bölüşdürülməsi regionda müəyyən işlərin görülməsinə nail olunması baxımından əhəmiyyətlidir. Silah alıcısı kimi tanınan Latın Amerikası regionu eyni zamanda, Azərbaycanın inkişaf edən müdafiə sənayesinin satış bazarı kimi də əhəmiyyətlidir.

Göründüyü kimi Azərbaycan Respublikası xarici siyasətinin yeni istiqamətlərindən biri olan Latın Amerikası ölkələri ilə münasibətlərin güclənməsi həm beynəlxalq iqtisadi və siyasi əlaqələrimizin artmasına, həm beynəlxalq mövqelərimizin möhkəmlənməsinə, həm də informasiya blokadasından çıxmaqla və erməni təxribatlarının qarşısını alaraq, əsil həqiqətin dünya ictimaiyyətinə çatdırılması istiqamətindəki səylərimizin uğurla inkişaf etməsinə təkan verdi.

## 2.2. Cənub-Şərqi Avropa ölkələri ilə əlaqələrin inkişaf etdirilməsinin iqtisadi və geosiyasi faktorları

Azərbaycan həyata keçirdiyi müstəqil xarici siyasət strategiyası ilə öz ikitərəfli əlaqələrini genişləndirərək, regionun geostrateji ve geosiyasi cəhətdən aparıcı ölkəsinə çevrilir. Gerçəkləşdirdiyi və iştirakçısı olduğu beynəlxalq əhəmiyyətli layihələr ilə Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən Azərbaycan Respublikasının, xüsusilə Cənub-Şərqi Avropa ölkələri ilə müxtəlif sahələri əhatə edən beynəlxalq səviyyəli əlaqələri çağdaş xarici siyasətin prioritetləri sırasında yer alır.

Azərbaycanın Cənub-Şərqi Avropa regionu ölkələri ilə ikitərəfli əlaqələri müxtəlif sahələri əhatə edərək öz inkişafında sürətli artım tempinə malikdir. Bu ölkələrdən biri Serbiyadır. Keçmiş Yuqoslaviya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanımış, Serbiya və Monteneqro ittifaqı ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələr 1997-ci il avqustun 21-də qurulub. Serbiya ilə yüksək səviyyəli qarşılıqlı rəsmi səfərlər, müxtəlif sahələri əhatə edən əməkdaşlıq 2010-cu ildən xüsusilə intensivləşməyə başlamışdır. Səfirliklərin açılması ilə diplomatik münasibətlər daha da dinamikləşib. 2010-cu ilin may ayında Serbiya prezidenti Boris Tadiç Azərbaycanda ilk rəsmi səfərdə olmuşdur. Xüsusilə, prezident

İlham Əliyevin 2011-ci ildə Serbiyaya səfərindən sonra Azərbaycan Serbiyada mədəni layihələrə bir neçə milyon avro sərmayə yatırmışdır. Bunlara Serbiyadakı kilsə və məscidlərin bərpası, Belqrad parkında Heydər Əliyevin heykəlinin qoyulması və.s. daxildir (80). 2014-cü il iyunun 10-da Serbiya Parlamentində 39 deputatdan ibarət Azərbaycan-Serbiya parlamentlərarası dostluq qrupu təsis edilib (19, s.4).

Ölkələr arasında siyasi, iqtisadi, ticarət, humanitar, ekoloji, təhsil, turizm və.s. sahələrdə sıx əməkdaşlıq mövcuddur. Belə ki, 2014-cü ildə ticarət dövriyyəsinin həcmi 3,84 mln. ABŞ dollar olmuşdur. Serbiyada avtomobil yolunun çəkilməsi birgə iştirak etdiyimiz böyük beynəlxalq layihələrdəndir. Azərbaycan Hökuməti bu layihə üçün Serbiya Respublikasına 4%-li 25 illik 308 mln. avro məbləğində kredit vəsaiti ayırmışdır (64).

Monteneqro ilə enerji təhlükəsizliyi sahəsində də sıx əməkdaşlıq mövcuddur. "Cənub" qaz dəhliziilə Azərbaycan qazı Avropaya nəql ediləcəkdir. Bu isə Monteneqronun uzunmüddətli strateji və enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb etməkdədir (25).

İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlığı da həmçinin yüksək səviyyədədir. Beynəlxalq təşkilatlar çərçivəsində ənənəvi olaraq bir-birinə verdiyi dəstək hər iki dövlətin maraqları baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə, ölkələrin ərazi bütövlüyü məsələlərində Azərbaycan ilə Serbiya daim bir-birinin yanındadır. İki ölkə arasında imzalanan bəyannamədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Serbiyanın Azərbaycanı, eyni zamanda, Kosovo məsələsində Azərbaycanın Serbiyanı dəstəkləməsi ilə bağlı dəqiq ifadələr öz əksini tapıb (38).

Cənub-Şərqi Avropanın mədəniyyəti və mövqeyi ilə çox önəmli ölkəsi Xorvatiyadır. Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 28-də tanımış bu ölkə ilə diplomatik münasibətlər 1995-ci ildən qurulmuşdur. 2000-ci il dekabrın 5-də Azərbaycan Milli Məclisində Azərbaycan və Xorvatiya Parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır.Xorvatiya Parlamentində Xorvatiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu isə 2008-ci ildən fəaliyyət göstərir. Azərbaycanın Xorvatiyadakı səfirliyi 2011-ci ilin fevral ayında açılmışdır. 2005-ci ildə ölkələr

arasında parlament sədrləri və nazirlər səviyyəsində qarşılıqlı rəsmi səfərlər baş tutmuşdur (27).

İki ölkə arasında imzalanmış 20-dək sənəd siyasi münasibətlərin yüksək səviyyədə olduğunun bariz göstəricisidir. Xorvatiya Zaqreb bəyannaməsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib. 2016-cı il oktyabrın 24-də Xorvatiya prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin Azərbaycana rəsmi səfəri ölkələrin beynəlxalq təşkilatlar- BMT, ATƏT, Avropa Şurası çərçivəsində də fəal əməkdaşlıq etdiyini göstərdi(27). Xüsusilə, Zaqreb Bəyannaməsi Azərbaycanla Xorvatiya arasında digər sahələrlə yanaşı, iqtisadi sahədə də münasibətlərin inkişafını nəzərdə tutur. Son bir neçə il ərzində iki ölkə arasında əmtəə dövriyyəsi əsasən neft və neft məhsulları hesabına xeyli artmışdır. Azərbaycan təkcə neft-qaz sahəsində deyil, həmçinin qarşılıqlı maraq doğuran digər sahələrdə də iqtisadiyyatın şaxələndirilməsini və əməkdaşlığın inkişafını vacib hesab edir. İki ölkə arasında 2012-ci il üçün ümumi ticarət dövriyyəsinin həcmi 334 mlyn.ABŞ dolları təşkil etmişdir (22).

Enerji təhlükəsizliyi Avropa İttifaqının digər üzvləri kimi Xorvatiya üçün də böyük əhəmiyyət kəsb edir. Azərbaycan-Xorvatiya əməkdaşlığının digər mühüm komponentini məhz enerji təhlükəsizliyi məsələsi təşkil edir. Xorvatiya Azərbaycan qazının Avropaya çatdırılması kontekstində Transadriatik qaz kəməri (TAP) və Şahdəniz-2 layihələrinin tamamlanmasını səbirsizliklə gözləyir (27). Qeyd edək ki, bu layihələr Azərbaycan qazının Avropaya nəqlini nəzərdə tutur.

28iyun2013-cü ildə konsorsium Azərbaycan qazını Avropaya nəql edəcək layihə kimi Trans-Adriatik Qaz Kəmərini (Trans-Adriatik Pipeline) (TAP) seçdiyini bəyan etmişdir. TAP layihəsi Cənubi Qafqaz Qaz Kəmərinin (Bakı-Tbilisi-Ərzurum) və Trans-Anadolu Qaz Kəmərinin (TANAP) davamı olub, "Şahdəniz-2" yatağındakı qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizi ilə İtaliyanın cənubuna, oradan isə Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu kəmərlə ilkin mərhələdə ildə 10 milyard, daha sonra 20 milyard kubmetrə yaxın qazın nəqli proqnozlaşdırılmışdır.Uzunluğu 870 km, dəyəri 2,2 milyard dollar olacaq TAP

kəməri Azərbaycan qazını Türkiyə, Yunanıstan, Albaniya ərazisi ilə İtaliyaya çatdıracaq. Qazın Yunanıstandan digər kommunikasiya infrastrukturları vasitəsi ilə Bolqarıstana, Adriatik dənizindən çoxşəbəkəli sistemlər vasitəsilə Bosniya, Herseqovina, Xorvatiya, Serbiya vəMonteneqroya çatdırılması nəzərdə tutulub. Ümumilikdə, TAP layihəsi vasitəsilə Cənub-Şərqi Avropa regionu ölkələri qazla təmin olunacaqdır (7).

Azərbaycan 2013-cü il dekabrın 17-də "Şahdəniz" layihəsinin ikinci mərhələsi üzrə yekun investisiya sazişini imzalamaqla daha bir tarixi uğura imza atdı. Bu saziş müasir dünyanın enerji xəritəsində özünün strateji rolu və yerinə görə seçilməklə yanaşı, digər mühüm transenerji şəbəkələrinin gerçəkləşməsinə də ciddi zəmin yaratmışdır. Yekun investisiya qərarı geoiqtisadi əhəmiyyətinə, dünya enerji mühiti üçün ağırlıq mərkəzinə görə "Əsrin müqaviləsi"nin ən mühüm komponenti kimi qiymətləndirilir. Layihə Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək və Avropaya yeni qaz dəhlizi açacaqdır. Layihədə 26 sualtı quyunun qazılması, həmçinin körpü ilə birləşdiriləcək iki platformanın tikintisi, Səngəçalda isə yeni texniki emal və kompressor qurğularının inşası nəzərdə tutulur(7).

Azərbaycan Respublikasının müstəqilliyini 1992-ci il dekabrın 4-də tanımış Albaniya ilə diplomatik münasibətlər 1993-cü il sentyabrın 23-də qurulmuşdur. 2010-cu il noyabrın 7-də Azərbaycan-Albaniya Parlamentlərarası Dostluq qrupu formalaşmışdır. Bu ölkə ilə hökumət başçıları, parlament sədrləri, nazirlər səviyyəsində qarşılıqlı rəsmi səfərlər 2010-cu ildən etibarən intensivləşmişdir. İki ölkə siyasi, iqtisadi (xüsusilə enerji), humanitar, təhsil sahəsində sıx əməkdaşlıq edir. TAP qaz boru kəmərinin seçilməsi iki ölkə arasında enerji sahəsində əməkdaşlıqla yanaşı, iqtisadiyyatın digər sahələrində də əməkdaşlığın inkişafı üçün geniş imkanlar açmışdır. Albaniya öz ölkəsinin qazla təminində və qaz bazarlarının inkişaf etdirilməsində ARDNŞ-nin fəal iştirakına ümid edir (9). Məlumdur ki, TAP kəməri bu ölkənin də ərazisindən keçəcəkdir.

Hazırda Albaniya ilə ümumi ticarət dövriyəsinin həcminin aşağı olmasına baxmayaraq, iqtisadi əlaqələr müxtəlif sahələri əhatə etməkdə davam etməkdədir. 2013-cü il üçün ticarət dövriyyəsi öncəki illərlə müqayisədə mənfi saldo təşkil edərək 0,0002 mln. ABŞ dolları təşkil etmişdir. Hazırda universitet, akademiya və idman federasiyaları arasında tələbə, müəllim, idmançı mübadiləsi və təmini istiqamətində əməkdaşlıq edilir (9). 2017-ci il martın 16-da prezident İlham Əliyev Albaniya Respublikasının prezidenti Buyar Nişanini qəbul edib. Görüşdə Azərbaycan ilə Albaniya arasında qarşılıqlı ümumi ticarət dövriyyəsinin artırılması istiqamətində işlərin görülməsinin vacibliyi xüsusilə vurğulanmışdır. Qeyd edək ki, Albaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir və Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öz ədalətli həllini tapacağına inanır. Albaniyanın baş naziri Sali Berişa da dəfələrlə Albaniyanın daim Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini və bundan sonra da beynəlxalq təşkilatlarda ölkəmizin yanında olacağını bildirmişdir (13).

Bolqarıstan Respublikası Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 14-də tanımış və iki ölkə arasında diplomatik münasibətlər həmin ilin 5 iyununda qurulmuşdur. Bolqarıstanın Azərbaycandakı səfirliyi 1999-cu ilin dekabrında açılmışdır. 2004-cü il aprelin 16-da isə Azərbaycanın Bolqarıstandakı səfirliyinin təsis edilməsi haqqında sərəncam imzalanmışdır. 1995-ci il Heydər Əliyevin Bolqarıstana səfəri ilə başlayan yüksək səviyyəli qarşılıqlı səfərlər 2008-ci ildən etibarən daha da intensivləşmişdir.Bolqarıstan Azərbaycanla mövcud əlaqələrin daha da inkişaf etdirilməsində və genişləndirilməsində maraqlıdır (37).

Beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərindən biri kimi sərhədlərin toxunulmazlığını rəhbər tutan Bolqarıstan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək verdiyini dəfələrlə təsdiqləmiş, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirmiş və Azərbaycanın, habelə beynəlxalq ictimaiyyətin bu istiqamətdə göstərdiyi səyləri dəstəkləmişdir. Bu dəstəyi bugün də davam etdirməkdədir (37).

İki ölkə arasında müxtəlif sahələri əhatə edən 68 sənəd imzalanmışdır. İki ölkə arasında əlaqələr siyasi, hüquq-məhkəmə, iqtisadi, humanitar, mədəni, turizm, sosial-

müdafiə, səhiyyə və idman sahələrini əhatə edir. Qeyd edilməlidir ki, Bolqarıstandakı Trapezitsa Memarlıq Muzeyi Qoruğununbərpasını Heydər Əliyev fondu maliyyələşdirmişdir (85). Ölkələr arasında ümumi ticarət dövriyyəsinin həcmi 2014-cü ildə 121 mln.ABŞ dolları təşkil etmişdir. Həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələrdə Bolqarıstanın da payı vardır. Belə ki, "Şahdəniz" konsorsiumunun Bolqarıstanda satışını həyata keçirmək üçün danışıqlar aparılır. Konsorsium Bolqarıstana istiqamətlənən boru kəmərinin nəqletmə həcmindən istifadə payı almaqda maraqlı olduğunu bildirməyi planlaşdırır (7). Xatırladaq ki, Bolqarıstan Rumınya ilə birlikdə hal-hazırda ləngisə də, təbii qazın Avropaya nəqlini nəzərdə tutan Nabucco layihəsinin tərəfdaşlarından idi.

1997-ci ilin oktyabrında yaradılan Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın Azərbaycanla yanaşı təsisçilərindən biri olan Moldova da elə Cənub-Şərqi Avropa ölkəsidir. İki ölkə AŞ, Qara Dəniz İqtisadi Əməkdaşlıq (QDİƏT) təşkilatı daxilində də fəal əməkdaşlıq edir. Bu çoxtərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan və Moldova arasında qarşılıqlı ikitərəfli əlaqələr də fəallaşır. İki dövlət arasında diplomatik əlaqələr 1992-ci il mayın 29-da qurulmuşdur. Azərbaycan Respublikasının Moldovadakı səfirliyi 2005-ci il oktyabrın 5-də açılmışdır. 1 ay sonra, 2005-ci il noyabrın 1-də Moldovanın Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətə başlamışdır. Ölkələr arasında yüksək səviyyəli- dövlət və hökümət başçıları, nazirlər, parlament sədrləri səviyyəsində qarşılıqlı səfərləri 2004-cü ildən etibarən reallaşmağa başlamışdır. Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupu8 aprel 2011-ci ildə Milli Məclisdə təsdiq edilmişdir (18).

Ölkələr arasında siyasət, iqtisadiyyat və mədəniyyəti əhatə edən 53 sənəd imzalanmışdır. Azərbaycan-Moldova prezidentlərinin qarşılıqlı səfərləri digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrin inkişafına müsbət təsirini göstərib. 26 noyabr 1997-ci ildə Moldova prezidenti Petru Luçiniski Azərbaycanda rəsmi səfərdə olarkən ona Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim edilib. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Moldova prezidenti Petru Luçinskiyə Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqim edilməsi mərasimində çıxış edib: "...Görün, nə qədər böyük səadətdir - 35 il öncə gənclərin

rəhbəri kimi ilk dəfə Azərbaycanda olmusunuz, tələbələrlə görüşmüsünüz. 35 ildən sonra isə öz ölkənizin prezidenti olub Bakı Universitetinin professor-müəllim heyəti və tələbələri ilə görüşürsünüz və sizə elmlər doktoru fəxri adı verirlər...". 2005-ci il aprelin 21-də Prezident İlham Əliyevin Moldovaya səfəri zamanı Moldovanın paytaxtı Kişinyov şəhərində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin təntənəli açılışı olub. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və Moldova Prezidenti Vladimir Voronin iştirak ediblər. 2007-ci ilin may ayında Kişinyov və Komrat şəhərlərində Azərbaycan Mədəniyyəti günləri keçirilib. 2008-ci il aprelin 23-də isə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Moldova mədəniyyəti günlərinin təntənəli açılışı olub. Mərasimdə Prezident İlham Əliyev və Prezident Vladimir Voronin də iştirak ediblər. İki ölkəni yaxınlaşdıran ən əsas cəhətlərdən birincisi ölkələrin seperatizmdən əziyyət çəkmələridir. Qeyd edilməlidir ki, Azərbaycan  Moldovanın ərazi bütövlüyünün bərpa edilməsini, Dnestryanı bölgə probleminin nizama salınması sahəsində fəaliyyətini tamamilə dəstəkləyir. Dağlıq Qarabağ və Dnestryanı münaqişələrinin həllində hər iki ölkə vahid mövqedən çıxış edirlər. Eləcə də, 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Baş Məclisin Ermənistan - Azərbaycan, Dağlq Qarabağ münaqişəsinə dair mövqeyini ifadə edən qətnamə layihəsinin müzakirələri zamanı Moldova qətnamənin lehinə səs verib.Moldova Prezidenti hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəyini bəyan etmişdir. İkitərəfli iqtisadi əlaqələrdə də fəal əməkdaşlıq mövcuddur. 2007-ci il fevralın 23-də Bakıda Azərbaycan-Moldova biznes-forumu keçirilib.2010-cu ilin I rübündə Azərbaycanın Moldova ilə ümumi ticarət dövriyyəsi 734 min ABŞ dolları təşkil etmişdir (18).

Sloveniya Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 27-də tanıyıb. Ölkələr arasında diplomatik əlaqələr isə 1996-cı ilin fevral ayında qurulub. 2004-cü ildə Sloveniya Respublikasının Azərbaycanda fəxri konsulluğu açılıb. 2012-ci ilin noyabrında isə Azərbaycan Respublikasının Sloveniyadakı səfirliyinin Lyublyana Ofisinin rəsmi açılışı olmuşdu. 2002-ci ildən xarici işlər nazirlərinin səfərləri ilə başlayan yüksək səviyyəli qarşılıqlı səfərlər 2008-

ci ildən hökümət və dövlət başçıları, parlament sədrləri səviyyəsində davam etdirilmişdir (39).

İki ölkə arasında 12 sənəd imzalanmışdır. 2009-cu ildə, 2013-cü il oktyabrın 22-də və 2015-ci illərdə Azərbaycan-Sloveniya biznes forumu keçirilmişdir. Bu tədbirlər ikitərəfli səfərlərin mühüm nəticəsidir.Ölkələr arasında iqtisadiyyatın bir çox sahələrində əməkdaşlıq sürətlə genişlənir. Belə ki, Sloveniya şirkətləri Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində geniş fəaliyyət göstərir. 2014-cü ildə Azərbaycan və Sloveniya arasında ticarət dövriyyəsinin həcmi 15 milyon ABŞ dolları təşkil etmişdir (39).

Prezidentlərin mətbuat konfransı zamanı Sloveniyanın o zamankı dövlət başçısı Danilo Türk çıxış edərək qeyd edib ki, ikitərəfli münasibətlər yaxşıdır, əməkdaşlıq uğurludur və iqtisadi əlaqələr də inkişaf etməkdədir: "Hazırda ticarət dövriyyəsi 10 dəfə artmışdır. Bu, artıq böyük nəticə deməkdir. Bir sıra sazişlərin imzalanması nəzərdə tutulur. Burada həm enerji, həm elektrik stansiyalarının tikintisi, həm informasiya texnologiyası, həm də sığorta sahələrində əməkdaşlıq baş tuta bilər. Biz Azərbaycan şirkətlərindən Sloveniyaya sərmayələrin qoyulmasını gözləyirik. Mədəniyyət sahəsində də əməkdaşlığımız genişlənir. Hesab edirəm ki, qarşımızda hələ bir çox əməkdaşlıq imkanları vardır". Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, ölkələrimiz arasında əlaqələr çox yüksək səviyyədədir: "Bizim aramızda çox fəal siyasi dialoq aparılır". "Ölkələrimiz arasında mövcud olan siyasi dialoq çox yüksək səviyyədədir", - deyən dövlət başçısı İlham Əliyev diqqətə çatdırıb ki, Sloveniya Azərbaycan üçün çox vacib tərəfdaşlardan biridir: "Avropa İttifaqı ilə gündəliyimiz çox genişdir. Əlbəttə, enerji təhlükəsizliyi məsələləri gündəliyin, demək olar ki, birinci sırasındadır və bu istiqamətdə əməkdaşlıq dərinləşir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün töhfəsini verməyə hazırdır. Bizim zəngin qaz ehtiyatlarımız artıq müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarılır. Biz qaz infrastrukturumuzun yaradılması nəticəsində çoxşaxəli ixrac imkanlarına malikik. Bu gün Azərbaycan qazını dünya bazarlarına çıxaran 4 kəmər vardır. Bu kəmərlər işlək vəziyyətdədir. Əlbəttə ki, zəngin qaz ehtiyatlarımızı dünya bazarlarına əmniyyətli yolla çıxarmaq üçün yeni kontraktlar lazımdır. Azərbaycanın

təsdiq edilmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrə bərabərdir. Bu da Azərbaycanı qaz ixrac edən çox önəmli ölkə kimi artıq dünyaya təqdim edir”. Prezident İlham Əliyevin 2011-ci ilin iyununda bu ölkəyə səfəri zamanı da bir sıra vacib məsələlər müzakirə olunub.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident Danilo Türk söyləyib ki, status-kvo qəbul edilən həll variantı deyildir: “Biz addımlarımızı sürətləndirməliyik ki, prinsiplər əks olunsun və həmin prinsiplər üzərində sülh müqaviləsi, sülh razılaşması əldə edilsin”.Parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin genişlənməsi baxımından önəmli olduğunun qeyd edildiyi bu görüşdə Azərbaycan ilə Sloveniya arasında əməkdaşlığın beynəlxalq təşkilatlar çərçivəsində də uğurla inkişaf etdiyi bildirilib (39).

Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Şurası (AŞ), Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi təşkilatlarda Azərbaycanla bərabər üzv qismində çıxış edən Cənub-Şərqi Avropa ölkələrindən biri də Makedoniyadır. Makedoniya Azərbaycan Respublikasının müstəqilliyini 1995-ci il iyunun 25-də tanımış və1995-ci il iyunun 28-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 2007-ci ildə xarici işlər naziri Elmar Məmmədyarovun bu ölkəyə səfəri ilə başlayan yüksək səviyyəli qarşılıqlı səfərlər 2012-ci ildən dövlət və hökumət başçıları səviyyəsində reallaşmağa başlamışdır. 2017-ci il martın 16-da Makedoniya prezidenti George İvanovun V Qlobal Bakı Forumunda iştirak etmək üçün Azərbaycana səfəri eyni zamanda ikitərəfli əlaqələrin inkişafının və əməkdaşlıq imkanlarının göstəricisidir. Qeyd edək ki,forumda Albaniya, Monteneqro, Bolqarıstan, Makedoniya, Bosniya və Herseqovina kimi Cənub-Şərqi Avropa ölkələri də iştirak edirdilər. Makedoniya Prezidenti bildirib ki, qaz və enerji layihələri, kənd təsərrüfatı və turizm sahəsində həyata keçirilən layihələr vasitəsilə Makedoniya iqtisadiyyatı Azərbaycan investisiyasının başlaması üçün hazırdır. Bu məqsədlə Prezident İvanov da bildirib ki, hər iki ölkənin işgüzar dairələri arasında əlaqələrin intensivləşdirilməsi vacibdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı isə, Makedoniya Prezidenti Azərbaycanı bu məsələdə Beynəlxalq Təşkilatlar çərçivəsində ölkəsi tərəfindən dəstəkləyəcəyini bir daha ifadə edib. Münasibətlər daha yeni olduğundan iki ölkə arasında 4 sənəd imzalanmışdır (88).

Rumıniya ilə Azərbaycan arasında əlaqələrin kökləri çox əvvələ dayanır. Rumıniya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 11-də tanıyıb. 1997-ci ildə Rumıniyanın Azərbaycanda səfirliyi fəaliyyətə başlamış, 2001-ci ildə isə Şərqi Avropa dövlətlərində ilk dəfə olaraq Azərbaycanın Rumıniyada səfirliyi açılmışdır. İki ölkə arasında diplomatik münasibətlər xüsusilə, Heydər Əliyevin Rumıniyaya 1995-ci ilin iyul səfərindən sonra inkişaf etməyə başlamışdır. Bu səfərdən sonra parlament sədrləri, nazirlər səviyyəsində də səfərlər həyata keçirilmişdir. 5 noyabr 2000-ci ildə Azərbaycanın yeni seçilmiş Parlamentində Azərbaycan-Rumıniya parlamentlərarası dostluq qrupu yaradılmışdır (20).

İki ölkə arasında müxtəlif sahələri əhatə edən 56 sənəd imzalanmışdır. Qeyd edək ki, Rumıniya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və ölkələrin sərhədlərinin toxunulmazlığı çərçivəsində həllinin tərəfdarıdır.Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq təşkilatlarda Azərbaycana Rumıniya tərəfindən davamlı dəstək verilir.İki ölkə arasında siyasi münasibətlərlə yanaşı, iqtisadi, humanitar, mədəni, turizm sahələrində də əlaqələr mövcuddur. Rumıniya-Azərbaycan iqtisadi münasibətləri yüksək templə inkişaf etməkdədir. Rumıniya Azərbaycan neftinin Avropa bazarlarına ixracında iştirak etmək istədiyini dəfələrlə bəyan edib. Bu ölkələr müxtəlif regional layihələrdə, o cümlədən TRASEKA proqramı çərçivəsində fəal əməkdaşlıq edir. 2012-ci ildə Rumıniyaya ixrac 59,60 milyon ABŞ dolları (bütün ixracın 0,25%-i), Rumıniyadan idxalın həcmi 23,99 milyon ABŞ dolları (ümumi idxalın 0,25%-i) təşkil etmişdir. Ticarət balansı isə Azərbaycanın xeyrinə 35,61 milyon dollara çatmışdır.Hal-hazırda Azərbaycanın SOCAR brendinin 16 yanacaq stansiyaları Rumıniyada fəaliyyət göstərir (20).

İki ölkə arasında mədəni əlaqələr getdikcə genişlənir. Məlum olduğu kimi, Bakıda "Azərbaycan - Rumıniya dostluq cəmiyyəti", Buxarestdə isə "Rom-Azer" Rumıniya - Azərbaycan dostluq cəmiyyəti fəaliyyət göstərir. 2006-cı ildə məşhur rumın bəstəkarı olan J.Eneskuya Bakıda abidə ucaldılıb. Tanınmış jurnalist Minodor Mitrikanın Azərbaycanın tarixinə, müstəqillik dövründə əldə etdiyi nailiyyətlərə, Heydər Əliyevin həyat və siyasi fəaliyyətinə həsr edilmiş "Azərbaycanın dirçəlişi"

kitabı rumın və ingilis dillərində çapdan çıxmışdır. Böyük Azərbaycan şairi Məhəmməd Füzuli Rumıniyada rumın dilinə tərcümə edilmiş yeganə klassik şairdir. Yazıçı Anarın, Çingiz Abdullayevin, Elçinin əsərləri, B. Vahabzadənin poemaları rumın dilinə tərcümə edilərək çap olunmuşdur (20).

Azərbaycan Avropanın enerji təhlükəsizliyində xüsusi rol oynayır. Bunu qiymətləndirən digər Avropa ölkələri kimi Rumıniya da Azərbaycanı regionda əsas tərəfdaş ölkə hesab edir. Regional və beynəlxalq təşkilatlarda Azərbaycan və Rumıniya yaxından əməkdaşlıq edirlər. Rumıniya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılması mövqeyindən çıxış edir (20).

Hələ 45 il bundan əvvəl Sarayevo ilə Bakı arasında dostluq sazişi imzanlanmış və onlar qardaşlaşmış şəhərlər olmuşlar. Bir məqamı da vurğulamaq lazımdır ki, Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyən çoxsaylı dövlətlərdən biri də elə Bosniya və Herseqovinadır. Göründüyü kimi bu ölkə ilə də Azərbaycanın əlaqələri daha öncələrə dayanır.2008-ci il fevralın 28-də Bosniya və Herseqovina parlamentində tərkibi 10 üzvdən ibarət olan "Parlamentlərarası Dostluq Qrupu" yaradılmışdır. Lakin hökumət və dövlət başçıları, nazirlər səviyyəsində qarşılıqlı səfərlər 2011-ci ildən baş tutmağa başlamışdır. Sarayevo elə həmin il, 2011-ci il martın 1-də Azərbaycan Respublikasında diplomatik ofisini açmışdır (43).

Yüksək səviyyəli qarşılıqlı əlaqələr yeni qurulduğundan iki ölkə arasında hələki 4 sənəd imzalanmışdır. 2016-cı il dekabrın 1-də Bosnia-Herseqovina baş naziri İqor Çrnadakın Azərbaycana səfəri zamanı bütün bu kimi məsələlər dərindən müzakirə olunmuşdur. O, 2014-cü ildə Cənub-Şərqi Avropa ölkələrində baş vermiş daşqınlar zamanı təbii fəlakətin nəticələrinin aradan qaldırılmasında Azərbaycanın Bosniya və Herseqovinaya humanitar dəstəyinin yüksək qiymətləndirildiyini xüsusilə vurğulayıb. Bosniya və Herseqovinanın Şimal-Cənub, Bakı-Tbilisi-Qars, TANAP və TAP kimi layihələrin yaradacağı imkanlardan faydalana biləcəyi nazirin diqqətinə çatdırılıb.Tərəflər eyni zamanda Azərbaycan və Bosniya və Herseqovinanın BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və bir-birini dəstəkləməsinin vacibliyini qeyd ediblər(43).

Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanımış Yunanıstan ilə diplomatik münasibətlər 1992-ci il aprelin 2-də qurulmuşdur. Yunanıstanın Azərbaycan Respublikasındakı səfirliyi 1993-cü il mayın 27-də açılmışdır. Azərbaycanın Yunanıstan Respublikasındakı səfirliyi isə 11 il sonra, 2004-cü il aprelin 16-da fəaliyyətə başlamışdır. Elə bu ildən etibarən də iki ölkə arasında yüksək səviyyəli qarşılıqlı səfərlər həyata keçirilməyə başlamışdır. Milli Məclisdə Azərbaycan-Yunanıstan Parlamentlərarası dostluq qrupu 2000-ci il dekabrın 2-də yaradılmışdır (23).

1994-2004-cü illərdə iki ölkə arasında iqtisadi, sənaye, texnologiya, enerji, elm, təhsil, mədəniyyət, nəqliyyat, investisiyaların qorunması, gömrük sahələrində müxtəlif sazişlər imzalanıb. Fərqli dövrlərdə Azərbaycanda səfərdə olmuş Yunanıstan nazirləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində BMT qətnamələrinin yerinə yetirilməsini, istənilən ölkə ərazisinin işğal olunmasına qarşı çıxdıqlarını bildiriblər.18 iyun 2003-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev Yunanıstanın xarici işlər nazirinin müavini İoannis Maqriotisi qəbul edib. Söhbət zamanı Heydər Əliyev qeyd edib ki, Yunanıstanın Avropa Birliyinə sədrlik etdiyi dövrdə Qafqaz ölkələri, o cümlədən Azərbaycanla çox səmərəli əlaqələr yaratmışdır. Qafqaz ölkələrində, o cümlədən Azərbaycanda geniş fəaliyyət göstərməyi yüksək qiymətləndirən Heydər Əliyev bütün sahələrdə bundan sonra da əməkdaşlıq etməyə hazır olduğunu bildirib. Azərbaycan-Yunanıstan münasibətlərinin göstəricisi olaraq Yunanıstan prezidenti Konstantinos Stefanopulos 2004-cü il iyunun 20-22-də Azərbaycana rəsmi səfərə gəlib. Rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstan Prezidenti Konstantinos Stefanopulosun təkbətək görüşü olub. Prezident İlham Əliyev ali qonağı səmimiyyətlə salamlayaraq, onun ölkəmizə səfərinin ikitərəfli əlaqələrin daha da dərinləşməsində yeni mərhələ olacağını vurğulayıb. Yunanıstan - Azərbaycan münasibətləri Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqında da inkişaf edir. Azərbaycanın bu ölkə ilə qurduğu əlaqələr müxtəlif sahələri əhatə edərək yüksək templə inkişaf etməkdədir. Dağlıq Qarabağ münaqişəsində isə Kipr kimi oxşar problemi olan Yunanıstan Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Son 5

ildə iki ölkə arasında xüsusilə iqtisadi sahədə müəyyən irəliləyişlər əldə olunmuşdur. Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan TAP layihəsinin Yunanıstan ərazisindən keçməsi iqtisadiyyatın digər sahələrində də əlaqələri mümkün edir. Qeyd edək ki, Azərbaycan-Yunanıstan arasında 2013-cü il üçün ümumi ticarət dövriyyəsinin həcmi 815 milyon ABŞ dolları təşkil etmişdir. Azərbaycan və Yunanıstan hökumətləri arasında bu günədək 21 hüquqi sənəd imzalanmışdır. Azərbaycan-Yunanıstan biznes forumu konkret sahələrdə işgüzar əlaqələrin yaranmasına kömək edəcəkdir. İki ölkə arasında imzalanmış sənədlərin iqtisadi və digər sahələrdə əməkdaşlıq üçün hüquqi baza yaratdığı vurğulanıb (23).

Azərbaycanın xarici siyasətinin yeni istiqamətlərindən biri olan Cənub-Şərqi Avropa ölkələri ilə əməkdaşlıq ölkəmizin siyasi və iqtisadi mövqeyini gücləndirməklə yanaşı Avropa strukturlarında tərəfdaşlarımızın artması istiqamətində də perspektivlərimizi artırır. Bu isə Azərbaycana qarşı Qərbin qeyri-obyektiv münasibətinin zərərli təsirlərindən sığortalanmaq istiqamətində də uğurlu xarici siyasət kursu kimi dəyərləndirilə bilər.

## 2.3. Şərqi və Cənub-Şərqi Asiya regionu Azərbaycanın xarici siyasətinin yeni üfüqü kimi

Qərbin böyük dövlətlərinin və Avropanın kontinental təsisatlarının Azərbaycan Respublikasına qarşı tutduğu qərəzli mövqe dövlətin xarici siyasətində yeni məkanlara çıxış strategiyası ilə ikitərəfli əlaqələrin genişləndirilməsini şərtləndirmişdir. Çoxtərəfli əməkdaşlıqla yanaşı ikitərəfli sahədə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu mövqeni dahada gücləndirərək, həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və haqlı mövqeyinin dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu yeni məkanlar sırasında Şərqi və Cənub-Şərqi Asiya regionundan olan ölkələr də yer almaqdadır.

Şərqi və Cənub-Şərqi Asiya regionu ölkələri- Çin və Yaponiya başda olmaqla, İndoneziya, Cənubi Koreya, Filippin, Sinqapur, Malayziya, Tailand, Bruney, Vyetnam, Kamboca kimi dövlətlər xüsusilə son 25 ildə dünya bazarında öz yerlərini möhkəmlədirlər. Əsasən daha çox əmək və resurs tələb edən istehsalatla məşğul olan bu ölkələr üçün də yüksək texnologiyaların tətbiqində Yaponiyanın ardınca sürətli bir sıçrayışa nail olmaları meyarı xarakterikdir. Təxminən 75 milyon əhaliyə malik olan Şərqi və Cənub-Şərqi Asiya dövlətləri dünya istehsalında öz paylarını 1975-ci ildəki 4%-dən, 1995-ci ildə 13%-ə, 2005-ci ildə isə 15%-ə çatdırmışdır. Bu ölkələr xarici aləmdən ildə idxal etdikləri məhsuldan təxminən 30 milyard dollarlıq artıq məhsul ixrac edirlər. Bu rəqəm təxminən Aİ-nin idxal və ixrac əməliyyatlarındakı saldosuna bərabərdir. Bu dövlətləri qlobal iqtisadiyyatda fərqləndirən digər xüsusiyyət onların dünya keyfiyyətini gözləməklə daha ucuz, keyfiyyətli əmtəə istehsal etmək bacarığı və liberal iqtisadiyyat qurmaları hesab olunur. Məhz elə bunun nəticəsidir ki, onlar qlobal dünya bazarlarında Avropa və Amerika istehsalçılarına ciddi rəqabət yaradaraq onları daxili bazarlarından sıxışdırmağa nail olublar. Regionun inkişafına təsir göstərən amillərdən biri də ölkələrin inkişafa lazım olan prioritet sahələrini düzgün müəyyənləşdirməsi hesab olunur (54). Məhz bu xüsusiyyətlər Azərbaycan ilə bu regionu yaxınlaşdıran, ikitərəfli əlaqələri mümkün edən amillərdəndir.

Eyni zamanda qeyd etmək lazımdır ki, Şərqi və Cənub Şərqi-Asiya regionu ölkələri də Azərbaycanla sıx və qarşılıqlı əməkdaşlıqda maraqlıdırlar. 1991-ci il dekabrın 27-də Çin Xalq Respublikası Azərbaycan Respublikasının müstəqilliyini tanımış və 1992-ci il aprelin 2-də iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. 1992-ci ilin avqust ayında ÇXR-in Azərbaycanda səfirliyi açılmış,1993-cü il sentyabrın 3-də isə Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlamışdır.2005-ci il martın 17-19-daprezident İlham Əliyev ÇXR-ə rəsmi dövlət səfər etmişdir. Danışıqlar prosesində Çin tərəfi Azərbaycana 15 mln. yuan məbləğində birdəfəlik təmənnasız yardım edəcəyini bildirmişdi (59). İlham Əliyev 2008-ci il avqustun 8-də XXIX Pekin Yay Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək üçün ÇXR-ə səfər etmişdi.

Beynəlxalq təşkilatlarda da Azərbaycan və Çin bir-birini dəstəkləyir. Çin Xalq Respublikası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə tərəfdardır, həmçinin BMT TŞ-nin münaqişəyə dair qəbul etdiyi müvafiq qətnamələrin həll edilməsini tamamilə dəstəkləyir. 2014-cü il mayın 19-da növbəti işgüzar rəsmi səfər baş tutub. Bütün səfərləri zamanı prezident İlham Əliyevin çıxışının mühüm bir hissəsini Ermənistanın ölkəmizə olan işğalçı təcavüzü və Xocalı soyqırımı haqqında bəyanat təşkil edir (59, s.91).

Azərbaycan-Çin münasibətlərinin iqtisadi təməlləri də möhkəmdir.1995-2011-ci illərdə Çin şirkətləri Azərbaycanın qeyri-neft sektoruna 102,5 mln. ABŞ dolları, neft-qaz sektoruna isə 598 mln. ABŞ dolları məbləğindəinvestisiya qoymuşdur. Azərbaycanda dövlət sifarişinəəsasən Çin şirkətlərinin iştirakı ilə reallaşdırılan layihələrin dəyəri isə 417 mln. avro təşkil edir. 2013-cü ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsinin həcmi 654,97 milyon dollar olmuşdur(59, s.93). Ümumiyyətlə, Azərbaycanvə Çin arasında bugünə qədər ticarət-iqtisadi sahədəəməkdaşlığa dair iyirmi sənəd imzalanmışdır.

Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də Yaponiyadır. 1991-ci il dekabrın 28-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış Yaponiya ilə diplomatikəlaqələr 1992-ci il sentyabrın 1-də qurulmuşdur. 2000-ci il yanvarın 21-də Azərbaycanda Yaponiyanın səfirliyi təsis olundu (59, s.141).

Yaponiya prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun bərpası təşəbbüsünü alqışlayırdı. Bu məqsədlədə 2002-ci ilin iyulunda Yaponiyanın XİN-nin müavini Şeiken Şuqura Azərbaycana səfər etmişdi.Aparılan danışıqlar isə İpək Yolu layihəsində birgə fəaliyyətin təminində mühüm rol oynamışdır. Prezident İlham Əliyevin 2006-cı il martın 7-10-da Yaponiyaya rəsmi səfəri ölkələrarası münasibətləri yeni səviyyəyə qaldırdı (59, s.143).Yaponiyanın böyük “İnpex” şirkəti“Əsrin müqaviləsi”əsasında Azəri-Çıraq-Günəşli layihələrinin işlənib hazırlanmasında və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisində fəal iştirak etmişdir. Bundan əlavə, Yaponiya hökuməti Azərbaycana qaçqınların yaşayış yerlərində məktəb və xəstəxana tikintisi üçün 200 milyon dollar həcmində əvəzsiz yardım ayırmışdı.Hazırda Azərbaycanda 19 Yaponiya şirkəti fəaliyyət

göstərir. Bugünə qədər ölkələrimiz arasında dövlət səviyyəsində 17 mühüm sənəd imzalanmışdır (59, s.157).

Azərbaycanın bu regionda əməkdaşlığa maraq göstərdiyi ölkələrdən biri də İndoneziyadır. Azərbaycanın xarici siyasətində Asiyanın islam ölkələri ilə münasibətlərinin prioritet təşkil etdiyini nəzərə alsaq, dünyanın ən böyük müsəlman ölkəsi olan İndoneziyanın mühüm rolu aydın olur. Bu ölkə ilə diplomatik əlaqələr 1992-ci il sentyabrın 24-də yaradılsa da, qarşılıqlı əməkdaşlığın inkişaf sürəti mövcud imkanlardan geri qalmışdı (54). 2006-cı il fevralın 1-də Azərbaycanın İndoneziya Respublikasındakı səfirliyi fəaliyyətə başlamışdır. 2010-cu il dekabrın 2-də İndoneziyanın Azərbaycan Respublikasında səfirliyi açılmışdır. İki ölkə arasında parlamentlərarası əməkdaşlıq qrupları yaradılıb. Bu qruplar ikitərəfli əlaqələrdə yaranan problemlərin həllinə çalışır(12). Azərbaycan XİN və İndoneziyanın Xarici İşlər Departamenti arasında2004-cü il sentyabrın 24-də BMT BA-nın 59-cu sessiyası zamanı imzalanmış Əməkdaşlıq və Məsləhətləşmələr Haqqında Anlaşma Memorandumu mövcuddur. Həm Azərbaycanda, həm də İndoneziyada iki ölkə arasındakı münasibətlərin inkişafına meyil güclüdür. Xüsusən son on il ərzində, İndoneziya və Azərbaycan beynəlxalq təşkilatlarda daim fəal əməkdaşlıq həyata keçirirlər və bu illər ərzində ikitərəfli siyasi əlaqələrin intensivliyi öz müsbət nəticələrini göstərir (12).

Azərbaycan İndoneziyanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Xüsusən, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində istər beynəlxalq təşkilatlar qarşısında, istərsə də ikitərəfli görüşlərdə İndoneziya hər zaman Azərbaycanın mövqeyini müdafiə edir. "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair" bəndin BMT BA-nın 59-cu sessiyasının gündəliyinə salınması təklifi ilə çıxış edən Azərbaycan Respublikasını İndoneziya da dəstəkləmişdir. Bu münaqişənin sülh yolu ilə- BMT qətnamələrinə əməl edilərək, ATƏT-in Minsk qrupu çərçivəsində həllinin tərəfdarıdır. İndoneziya rəsmiləri bir çox görüşlərdə dəfələrlə Xocalı soyqırımını da tanıdıqlarını bəyan ediblər (49). Bunu İndoneziyanın insan hüquqları üzrə müvəkkilicənab Nur Xolisin fikirləri təsdiqləyir: “Dağlıq Qarabağ problemi sadəcə münaqişə deyil, Ermənistanın Azərbaycana qarşı açıq və aydın təcavüzüdür. Bu

təcavüz nəticəsində 1 milyondan çox Azərbaycan xalqı kütləvi qətllər, soyqırım aktlarına məruz qalaraq evlərindən qaçmağa məcbur olmuşlar. Onların təbii hüquqları Ermənistan Silahlı Qüvvələri tərəfindən pozulmuşdur.Dağlıq Qarabağ münaqişəsinin həlli vacibdir.” İslam Konfransı Təşkilatı daxilində də Ermənistana sanksiyaların tətbiq edilməsi və Ermənistanla diplomatik əlaqələrin dayandırılması ilə bağlı iki sənədin hazırlanaraq həyata keçirilməsi İndoneziya, Türkiyə, Pakistan kimi üzv dövlətlər tərəfindən tələb edilmişdir. Sosial-mədəni əməkdaşlıq sahəsində də müəyyən irəliləyiş əldə edilmişdir. 2007-ci ildən, İndoneziya hökuməti İndoneziyada təhsil almaq istəyən azərbaycanlı tələbələrə təqaüd təklif etmişdir. Digər tərəfdən Azərbaycan Diplomatik Akademiyasında magistr dərəcəsi üzrə təhsil alan indoneziyalı diplomatlar üçün təqaüdlər təklif edilir. 25-dən çox azərbaycanlı tələbə təhsilini başa vurub və İndoneziyada işlərini davam etdirir (92).

Azərbaycanın iqtisadi, siyasi və humanitar sahədə İndoneziya ilə əlaqələri yüksəkdir. Ölkə nümayəndələrinin qarşılıqlı görüşləri isə bu əlaqələrin daha da inkişaf etməsinə səbəb olur. Azərbaycanla İndoneziya arasında ticarət dövriyyəsi 2004-cü ildə 131 milyondan artıq ABŞ dolları təşkil etdiyi halda, 2011-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 950 milyon dollar olub, amma 2012-ci ildə isə iki dəfə çox artaraq təxminən 2 milyard dollar təşkil etmişdir (49).

İki ölkə arasında ticarət dövriyyəsi hər il daha da artır. İndoneziya ikinci ən böyük xam neft tədarükçüsüdür.Taxta və maşın məhsulları Azərbaycana məhz İndoneziyadan ixrac edilir.Azərbaycanda İndoneziyanın əsas ixrac məhsulları: konservləşdirilmiş qida, qəhvə, rezin məhsulları, məişət texnikası və tekstildir. Azərbaycanda Naxçıvan bölgəsinin, xüsusilə qida sənayesi, avtomobil sektoru və xalçaçılıq sahəsi İndoneziya ilə ticarət üçün çox cəlbedici imkanlara malikdir. 2005-2008-ci illərdə ərzində Naxçıvan Muxtar Respublikasıbeynəlxalq ictimaiyyət tərəfindən böyük diqqət görən, əhəmiyyətli layihələr həyata keçirməklə çox uğurlu olduğunu sübut etdi (29).

XX əsrin 80-ci illərindən etibarən siyasi-iqtisadi liberalizm dünya iqtisadiyyatının inkişafına gətirib çıxardı. Bu irəliləyiş bir çox Cənub-Şərqi Asiya dövlətlərinin, xüsusilə Cənubi Koreyanın iqtisadiyyatına güclü təsir etdi və qısa

müddətli iqtisadi islahatlar nəticəsində dünya ölkələri içərisindəKoreya Respublikası xüsusi yer qazana bildi.Koreya Respublikası iqtisadi inkişafına görəhətta Avropada bir çox ölkələri ötüb keçmişdir (59, s.221). Azərbaycan və Cənubi Koreya arasında diplomatik əlaqələr 1992-ci il martın 23-də, onun Azərbaycanın müstəqilliyini tanımasından dərhal sonra qurulmuşdur. 1997-ci ildə iki ölkənin ticarət və sənaye sahəsində fəaliyyət göstərən səviyyəli orqanları arasındaikitərəfli əməkdaşlığa dair imzalanmış protokol irəliləyişə nail olmaq iqtidarında olmasa da vacib addım idi. 2000-ci ilin rəsmi səfərlərində aparılan danışıqların nəticəsi kimi bir neçə razılaşmalar imzalanmışdır. Bütün bunların nəticəsi olaraq Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) o zamankı vitse-prezidenti İlham Əliyev Cənubi Koreyaya dəvət olundu. Bu dəvətdən sonra ikitərəfli əlaqələr müsbət xətt üzrə sürətlə inkişaf etməyə başladı. 2004-cü il oktyabrın 26-da Bakıda keçirilən ilk Azərbaycan-Cənubi Koreya siyasi forumu siyasi əməkdaşlıq və əlaqələrin inkişafı üçün olduqca əhəmiyyətli idi. Bu forumdan sonra, 2005-ci ilin 29-30 noyabrında Azərbaycanın XİN-i Elmar Məmmədyarov siyasi və iqtisadi əlaqələrin yeni erasının təməli üçün Cənubi Koreyaya rəsmi səfər etdi. 2008-ci ildən ikitərəfli münasibətlərdə inkişaf müşayət olundu. Xüsusilə yüksək səviyyəli rəsmi səfərlərin sayı artmışdır (84).

Tərəflərümumi əməkdaşlıqdan kənar iqtisadiyyat, təhlükəsizlik, nəqliyyat, rabitə, təhsil, istehsalat sahələrindəlayihələr üzərində işləyirlər. Bu maddi layihələrin çoxu ikitərəfli ticarət üzərində mərkəzləşmişdi. Keçmiş Cənubi Koreya prezidenti Roh Moo-hyun Azərbaycana səfəri zamanı iki ölkənin nümayəndələri arasında vacib müzakirələr aparılmışdı. Bu səfər zamanı Roh Moo-hyununAzərbaycanın milli maraqları və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həlli barədə fikirləri dəstək kimi qiymətləndirilmişdi. Bundan başqa, Roh Moo-hyun tarixi ticarət marşrutu - İpək yolunun bərpası və canlandırılması sahəsində də Azərbaycan ilə əməkdaşlıq edəcəklərini ifadə etdi. 2006-cı ildə baş tutan bu səfər zamanı Azərbaycan və Cənubi Koreya arasında əhəmiyyətli investisiya layihələrinin başlanması, sənaye, energetika, rabitə və neft sahəsində əməkdaşlıq haqqında 9 ayrı sənədin imzalanması mümkün oldu (84).

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü və Azərbaycan iqtisadi təşəbbüsləri, beynəlxalq əhəmiyyətli layihələrdə iştirakı Cənubi Koreyanı cəlb edən amillərdəndir. Cənubi Koreyanın böyük şirkətlərinin Azərbaycan bazarlarına daxil olması iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına gətirib. Bunlara Hyundai, LG, Samsung kimi çoxmillətli koorporasiyaları nümunə gətirmək olar. Bu irimiqyaslı layihələrin bir hissəsi kimi, Koreya istilik elektrik stansiyasının Azərbaycan hökuməti ilə ilk istilik elektrik stansiyasının tikintisi üçün imzaladığı sazişi misal göstərə bilərik. Bunun dəyəri 750 milyon ABŞ dolları kimi qiymətləndirilir. 2007-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Cənubi Koreyaya səfəri baş tutdu. Səfər zamanı cənab İlham Əliyev Cənubi Koreyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanaşmasına hərtərəfli məmnunluğunu bildirdi. 2008-ci il mayın 19-da Cənubi Koreyanın baş naziri Han Seung-sunun bir neçə yüksək səviyyəli rəsmi görüşlər aparmaq üçün Azərbaycana səfər zamanı Azərbaycan və Cənubi Koreya münasibətləri daha yüksək nöqtəyə çatdı. Han Seung-sunun səfəri barədə Azərbaycan prezidenti İlham Əliyevin fikirləri ikitərəfli münasibətlərin müstəsna yüksəkliklərdə inkişaf etdiyini təsdiq edir. 2008-ci ildən bu iki ölkə təhlükəsizlik sahəsində fəal əməkdaşlıq edir (84).

İki ölkə arasında sosial-mədəni sahədə də əməkdaşlıq mövcuddur. 2008-ci ildən Koreya Xarici Dillər UniversitetindəAzərbaycan dilinin tədrisinə nail olunmuşdur. Bunun davamı olaraq 2009-cu ilin aprel ayında Seul Milli Universitetinin kitabxanasında Azərbaycan bölməsi yaradılmışdır.Eyni zamanda, KOJKO 6 dekabr 2012-ci ildə Naxçıvan Dövlət Universiteti ilə tədris prosesinin və idarəetmənin modernləşdirilməsinə dair müqavilə imzalayıb. Müqavilənin şərtlərinə uyğun olaraq universitetdə Koreya texnologiyası əsasında tədris laboratoriyaları və elektron idarəetmə sistemləri yaradılmışdır(59, s.224).

Filippin Azərbaycan Respublikasının müstəqilliyini1992-ci il martın 27-də tanımışdır.Azərbaycan Respublikasının Filippində, Filippinin Azərbaycanda səfirliyi fəaliyyət göstərmir. Ölkələr arasında sənədlər imzalanmayıb. 2014-cü il noyabrın 26-da prezident İlham Əliyevə etimadnaməsini təqdim edən Filippinin yeni akkreditə olunmuş səfiri- Maria Rowena Mendoza Sanchezölkələr arasında dostluq

münasibətlərinin qeyd edərək iki ölkənin ortaq dəyərləri bölüşdüyünü məmnuniyyətlə bildirmişdi. Bu görüşdə İlham Əliyev siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən müxtəlif istiqamətlərdə, əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirərək, münasibətlərin müsbət istiqamətdə inkişafının mümkünlüyünü xüsusilə vurğulayıb (87). Xatırladaq ki, Azərbaycan Respublikası və Filippin arasında rəsmi və qeyri-rəsmi heç bir səfər baş tutmayıb.

Cənub-şərqi Asiya regionunun digər bir ölkəsi Tailanddır. 2003-cü ildə APEC-in toplantısı Tailandda keçirilmişdir. Bu gün Tailanda məxsus silahlı qüvvələr BMT-nin sülhməramlı qüvvələrinin tərkibində xidmət edirlər. Beynəlxalq əlaqələrini genişləndirmək səylərinin bir hissəsi kimi ADT və ATƏT kimi regional təşkilatların işində, eyni zamanda bu ölkənin hərbi kontingenti Əfqanıstan və İraqda həyata keçirilən bərpa işlərində yaxından iştirak edir (21). Azərbaycan ilə Tailand arasında diplomatik əlaqələr 1992-ci il iyulun 7-də yaradılmışdır. Azərbaycan Respublikasının Tailandda səfirliyi açılmayıb. Tailandın Ankaradakı Səfirliyi 2002-ci ilin martından, eyni zamanda, Azərbaycanda da akkreditə edilmişdir (54). Azərbaycan Respublikasının XİNvə Tailand Krallığının XİN-i arasında 2006-cı il iyunun 19-da əməkdaşlıq haqqında 1562 saylı protokol AR Prezidentinin 6 iyul 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmişdir. Azərbaycan - Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupu mövcud deyil. Bu ölkədə Azərbaycan diasporası fəaliyyət göstərmir. Lakin bu əlaqələr günü-gündən genişlənir (48).

Artıq siyasi, iqtisadi, mədəni və ticarət sahələri üzrə çox yüksək əlaqələr formalaşıb. Məlumdur ki, iqtisadi əməkdaşlıq olmayan zaman digər əlaqələrin inkişafı mümkünsüz olur. 2011-ci ildə Azərbaycanın Tailandla 470 milyon dollar ticarət dövriyyəsi olub. Lakin bu göstərici 2012-ci ildə xeyli artaraq 1.5 milyard dollara yaxınlaşıb.Ölkələrarası məsafənin uzaq olmasına baxmayaraq, Azərbaycanla ticarət dövriyyəsinin artımına görə Tailand ilk yerlərdədir. 2013-cü il dekabrın 4-də Milli Məclis Sədrinin müavini Valeh Ələsgərovla Tailand Krallığı Parlamentinin Tailand-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti ilə baş tutan görüşdə Tailand-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, deputat Virun Pünsən ölkəsinin Ermənistan-Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəklədiyini xüsusilə vurğulayıb (48).

Azərbaycan Respublikası ilə Kamboca arasında diplomatik əlaqələr 1994-cü il dekabrın 28-da yaradılmışdır.Azərbaycanın Kambocada, Kambocanın Azərbaycanda səfirliyi fəaliyyət göstərmir. Müştərək sənədlər imzalanmayıb (54). Prezident İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 2014-cü il aprelin 21-də Kambocanın Baş naziri Hun Seni qəbul edib. Bu birinci səfər tarixi əhəmiyyətli hadisə idi. Çünki, bu ilə qədər iki ölkə arasında heç bir səfər baş tutmamışdı. Baş nazir beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın vacibliyini vurğulayıb.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı isə o, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını qeyd edib. Kamboca bütün sahələrdə Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır və yaxın gələcəkdə Azərbaycanda öz səfirliyini açmağı planlaşdırır.Kamboca düyü üçün öz daxili tələbatını tam ödəyir, lakin maliyyə resurslarının olmaması səbəbindən dünya bazarlarına çıxış əldə etmək iqtidarında deyil. Buna görə də, Kamboca Krallığı Azərbaycanın kənd təsərrüfatı sektorunun bu sahəsinə investisiya yatıraraq, dünya qlobal bazarına birgə daxil olmaqda maraqlıdır. Baş tutan bu görüşlər ikitərəfli əlaqələrin inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edir.İkitərəfli münasibətlər xalqların iradəsinə uyğun olaraq dostluq və əməkdaşlıq ruhunda inkişaf edir (83).

Bruney Darüssalam Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1995-ci il noyabrın 25-də tanımışdır. Hələlik qarşılıqlı olaraq diplomatik nümayəndəliklər təsis edilməmişdir. Azərbaycanın Bruneydə, Bruneyin Azərbaycanda səfirliyi fəaliyyət göstərmir. Müştərək sənədlər imzalanmayıb (54). Azərbaycan və Bruney beynəlxalq təşkilatlar çərçivəsində çox uğurla əməkdaşlıq edirlər. 2006-ci il martın 18-20-də Azərbaycanın XİN-i Elmar Məmmədyarov Bruney Darüssalamda rəsmi səfərdə olmuşdur. Səfər zamanı iki ölkələrarası əlaqələr müzakirə olunmuş, bütün sahələrdə əməkdaşlığın genişlənməsi və hüquq-müqavilə bazasının gücləndirilməsinin əhəmiyyəti qeyd olunmuşdur. Səfər çərçivəsində, nazirliklərarası əməkdaşlığa dair nota mübadiləsi həyata keçirilmişdir. 2011-ci il aprelin 24-26-da Bruneyin DİN-i Badaruddin bin Othman Bakıda keçirilən İƏT-ə üzv ölkələrin əmək

nazirlərinin II konfransında iştirak etmək üçün Azərbaycana səfər etmişdi. 2013-cü il noyabrın 8-12-də Bakıda keçirilmiş İSESKO və İƏT ölkələrinin uşaq məsələləri üzrə məsul nazirlərinin IV konfransında iştirak etmək məqsədilə Bruney Təhsil Nazirliyinin baş direktoru xanım Pg Sarah Pg Kamaluddin Azərbaycanda səfərdə olmuşdur (11).

Əhalisi 5 milyondan çox olan Sinqapurda özəl mülkiyyət 87,2 %-dən çoxdur. 2009-cu ildə maliyyə böhranı ərzində işsizlik digər inkişaf etmiş Avropa ölkələri ilə müqayisədə cəmi 3%, 2011-ci ildə isə 1,9% olmuşdur. Azərbaycan Respublikası ilə Sinqapur Respublikası arasında diplomatik münasibətlər 1994-cü il avqustun 15-dəqurulmuşdur. Sinqapur eyni zamanda, Azərbaycanın Dağlıq Qarabağın qaytarılması uğrunda apardığı mübarizəni ədalətli hesab edir və Ermənistanın təcavüzkarlığı nəticəsində yaranmış bu hərbi-siyasi münaqişənin Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması yolu ilə həll edilməsinətərəfdar olduğunu daim bildirir.2010-cu ildə Sinqapurun XİN-i C.Y.Yeonun Azərbaycanda olması ölkələr arasında diplomatik münasibətlərin yaranmasından sonra Sinqapur rəsmilərinin Azərbaycana ilk yüksək səviyyəli səfərikimi əlaqələrin başlanmasının start nöqtəsi hesab olunur.İki ölkə bir çox sahələrdə və müxtəlifbeynəlxalq təşkilatlar çərçivəsində fəal şəkildə əməkdaşlıq edirlər. Beləliklə, 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi prosesindəölkəmizə verdiyi dəstək, həmçinin Qoşulmama Hərəkatına üzv ölkələrin Sammiti zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipləri əsasında həlli ilə bağlı qəbul edilən qətnaməyə səs verməsi Azərbaycan-Sinqapur əlaqələrinin əhəmiyyətli hadisələri kimi hesab oluna bilər (59, s.251).

2012-ci il noyabrın 20-21-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Sinqapur Respublikasına etdiyi dövlət səfəri ölkələrarası münasibətlərin daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. İkiölkə arasında qarşılıqlı sərmayəqoyuluşu istiqamətində də artıq müəyyən fəaliyyət mövcuddur. Azərbaycanın Dövlət Neft Şirkəti Sinqapurda, Sinqapurun bir neçə şirkəti isə Azərbaycanda müəyyən iş qurmuşlar. Sinqapurun «Keppel Offshore and Marine» şirkəti Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan İnvestisiya Şirkəti ilə 52 hektar

sahəsi olan yeni gəmiqayırma zavodu və tərsanənin inşasına, idarə olunmasına dair əməkdaşlıq haqqında saziş imzalayıb.Azərbaycanla Sinqapur arasında beynəlxalq iqtisadi əməkdaşlıq layihələrindən biri də Azərbaycanda gəmiqayırma zavodunun yaradılması olub. Bu böyük zavodun qurulması Sinqapurun "Keppel" şirkəti ilə Azərbaycanın birgə fəaliyyətinin mühüm iqtisadi nəticəsidir (59, s.252).

Malayziya 1991-ci il dekabrın 31-də Azərbaycan Respublikasının müstəqilliyini tanımışdır. Lakin ölkələr arasındakı diplomatik əlaqələr 1993-cu il aprelin 5-də yaradılmışdır. Malayziyanın Azərbaycanda səfirliyi 2014-cüildə açılmışdır. Azərbaycan Respublikasının isə 2006-cı ildən həmin ölkədəsəfirliyi fəaliyyətə başlamışdır.Azərbaycan və Malayziya arasında parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. İkitərəfli münasibətlər 13-14 dekabr 1994-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İKT-nin 7-ci Zirvə Toplantısında Malayziyanın sabiq baş naziri Mahatir bin Məhəmmədlə görüşündən sonra inkişaf etməyəbaşlayıb. Görüş zamanı hər iki dövlətin BMT və İKT çərçivəsindəki əməkdaşlığından razılıq ifadə edilmiş və müxtəlif sahələrdəəməkdaşlığın inkişaf perspektivləri müzakirə olunmuşdu (59, s.269).

2006-cı il ikitərəfli münasibətlərinin tarixində dönüş nöqtəsi olmuşdur. Azərbaycan Respublikasının XİN ilə Malayziya XİN-nin 2006-cı il martın 16-18-də Kuala-Lumpur şəhərində keçirilmiş görüşündə ikitərəfli əlaqələrə dair məsələlər müzakirə olunub. 2006-cı ildə Azərbaycan Malayziya tərəfinin turizm, korrupsiya, miqrasiya məsələlərinə dair təşkil etdiyi bir neçə görüşdə də təmsil olunmuşdu. 2012-ci ildəAzərbaycanın "Silk Way Airlines" və Malayziyanın "MASkargo" aviaşirkətləri arasında əməkdaşlığa dair Memorandum imzalanıb. Azərbaycanın süni peykinin 2013-cü ildə orbitə buraxılması ilə ölkəmizlə İKT sahəsində əməkdaşlıq təklifləri arasında Malayziya da vardır. Belə ki, Malayziya hökuməti «Azerspace-1»in xidmətindən istifadə üçün Azərbaycanla müvafiq müqaviləni bağlamışdır (59, s.271).

Vyetnam Azərbaycanın müstəqilliyini1991-ci il dekabrın 27-də tanımış, 1992-ci il sentyabrın 23-də isəiki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Ölkələr arasında tarixi əlaqələrin əsasının qoyulmasında isə HeydərƏliyevin misilsiz xidmətləri vardır. Bunu iki ölkə arasında keçirilən müxtəlif formatlı görüşlər zamanı

Vyetnam nümayəndələri özləri də xüsusi olaraq qeyd edirlər (59, s.291). 2010-cu ildə Vyetnam və Azərbaycan arasında diplomatikpasport sahibləri üçün vizanın aradan qaldırılması barədə razılaşma və iki ölkənin xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalanıb. 2013-cü ildəisə Azərbaycan Respublikası Vyetnam Sosialist Respublikasında öz səfirliyini açdı.Bu addım da Azərbaycan Respublikası xarici siyasət istiqamətlərinin Cənub-Şərqi Asiya regionuna doğru genişləndirməsi strateji məqsədinə uğurla xidmət etmişdir.Belə ki, Prezident İlham Əliyevin 2014-cü il mayın 18-də başlanan və həmin ayın 20-dək davam edən Şərqi və Cənub-Şərqi Asiya regionuna səfəri Azərbaycan Respublikasının bu regiona olan marağının artdığını bir daha göstərir. Qeyd etmək vacibdir ki, Azərbaycan Prezidentinin Cənub-Şərqi Asiya regionuna bu səfəri məhz Vyetnamdan başlamışdır (59, s.294).

İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq da genişlənir. Belə ki, ölkələr arasında ikitərəfli ticarət dövriyyəsi 2013-cü ildə 325 milyon dollar təşkil etmişdir. Bu da 2012-ci illə müqayisədə ticarət dövriyyəsinin 10 dəfə artması demək idi. Məlum olduğu kimi, Vyetnam ölkəmizə əsasən mobil telefonlar, kompüter, elektronika və dəniz məhsulları ixrac edir, Azərbaycandan isə xam neft və benzin alır.Siyasi və ticarət-iqtisadi əlaqələrlə yanaşı, Azərbaycan ilə Vyetnam arasında mədəniyyət, idman, təhsil sahəsindədə əlaqələr genişlənməkdədir (90).

Xarici siyasətimizin yeni istiqamətlərindən olan Şərqi və Cənub-Şərqi Asiya regionu ilə inteqrasiya Azərbaycanın yeni texnologiyalara əsaslanan qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində də geniş perspektivlər yaradır. Lakin, əməkdaşlığın səviyyəsi hələ kifayət qədər yüksəək deyil. Buna baxmayaraq, ölkəmizin son illərdə xarici siyasətdə qazandığı uğurlar onu deməyə əsas verir ki, digər regionlarla olduğu kimi Şərqi və Cənub-Şərqi Asiya regionunda da siyasi və iqtisadi mövqeyimiz gündən-günə güclənəcəkdir. Nəzərə alsaq ki, bəhs olunan regionla siyasi əlaqələrimiz yalnız müsbət impulsda inkişaf edir. Bu amil Azərbaycanın xarici əlaqələrinin ölkəmizin inkişafınd çox mühüm nailiyyətlər qazanacağına əminlik yaradır.

# NƏTİCƏ

Tədqiqat işində müəyyən edilən vəzifələr yerinə yetirilmişdir. Əldə edilən nəticələr aşağıdakı şəkildə ümumiləşdirilə bilər.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil və çoxvektorlu xarici siyasət kursu Azərbaycanı informasiya blokadasından çıxartdı. Dünya ölkələri ilə davamlı siyasət əlaqələrinin inkişaf etdirilməsi üçün möhkəm zəmin yaratdı. Azərbaycan iqtisadiyyatının inkişafını stimullaşdırdı. Ölkə daxilindəki siyasi sabitliyi möhkəmləndirdi və Azərbaycanı dünyanın aparıcı dövlətləindən birinə çevirdi. Lakin XXI əsrin əvvəllərində Azərbaycanın xarici siyasətdə üstünlük verdiyi Avropa vektoru müəyyən istiqamətlər üzrə Azərbaycanın milli maraqlarına neqativ təsir göstərməyə başladı. Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının və bəzi Avropa dövlətlərinin parlamentlərinin təşkil olunan müzakirələrində və qəbul olunan sənədlərində Azərbaycanın dövlət maraqlarına zərbə vurmaqla bərabər Avropa strukturlarına olan inamı da zəiflədirdi. Bu şəraitdə Azərbaycan öz xarici siyasətində digər vektorlarla bərabər yeni istiqamətlər axtarışına başladı. Yeni istiqamətlər Azərbaycanın Xarici siyasətini möhkəmləndirməklə bərabər ölkəmizin beynəlxalq mövqelərini də gücləndirəcəkdir.

Azərbaycanın xarici siyasətində yeni meyllərin yaranmasına və şərtlənməsinə təkan edən digər faktor müasir geosiyasi proseslərdir. Yaxın Şərqdə baş verən çevrilişlər, Ukraynanın ərazi bütövlüyünün pozulması, Rusiya və Qərb arasında dərinləşməkdə davam edən qarşıdurmanın olması Azərbaycana və onun xarici siyasətinə də təsirsiz qalmadı. Bütün bu müasir geosiyasi proseslər fonunda Azərbaycana qarşı Qərbin ikili standartlar siyasəti xarici siyasətimizi heç də zəiflətmir. Əksinə, Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənir və region dövlətləri ilə əməkdaşlığının intensivliyi artır. Qərbin paralel olaraq Rusiya, Türkiyə və İran kimi dövlətlərə qarşı da qeyri-obyektiv mövqedən çıxış etməsi, bu ölkələrlə münasibətdə Azərbaycanın rolunu və əhəmiyyətini artırır ki, bu da ölkəmizin regionda mövqelərini möhkəmləndirməsi üçün daha uğurlu perspektivlər yaradır.

Azərbaycan xarici siyasi və iqtisadi əlaqələrini daha da genişləndirməyə və öz beynəlxalq dəstəyini artırmaq istiqamətində səylərini gücləndirməyə başladı.

Göstərilən səbəblər ilə Azərbaycan Respublikasının xarici siyasətinin çağdaş prioritetləri şərtlənmiş və müəyyənləşmiş oldu. Bu prioritetlər arasında Latın Amerikası, Cənub-Şərqi Avropa, Şərqi və Cənub-Şərqi Asiya regionu ölkələri ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi əsas istiqamətlərdəndir. Azərbaycan ilə Latın Amerikası regionu ölkələri arasında əlaqələr 2010-cu ildən yüksək inkişaf dövrünə qədəm qoyub. Bu illər ərzində Azərbaycanın region ölkələrində və həmin ölkələrin Azərbaycanda diplomatik nümayəndəlikləri təsis edilmiş, çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilmiş və ikitərəfli sazişlər imzalanmışdır. Argentina, Brazilya, Uruqvay, Çili, Peru kimi Latın ölkəsində Azərbaycanın səfirliyi fəaliyyət göstərir.Azərbaycan Respublikası xarici siyasətinin yeni istiqamətlərindən biri olan Latın Amerikası ölkələri ilə münasibətlərin güclənməsi həm beynəlxalq iqtisadi və siyasi əlaqələrimizin artmasına, həm beynəlxalq mövqelərimizin möhkəmlənməsinə, həm də informasiya blokadasından çıxmaqla və erməni təxribatlarının qarşısını alaraq, əsil həqiqətin dünya ictimaiyyətinə çatdırılması istiqamətindəki səylərimizin uğurla inkişaf etməsinə təkan verdi.Məhz bu amil regionun Azərbaycanın xarici siyasətində mühüm rolu olduğunu göstərir.

Azərbaycanın xarici siyasətinin yeni istiqamətlərindən biri olan Cənub-Şərqi Avropa ölkələri ilə əməkdaşlıq ölkəmizin siyasi və iqtisadi mövqeyini gücləndirməklə yanaşı Avropa strukturlarında tərəfdaşlarımızın artması istiqamətində də perspektivlərimizi artırır. Beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüsçüsü, Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi də Azərbaycan bu regionun ölkələri ilə əlaqələrinin vektorlarını daha da genişləndirir. Bu isə xüsusilə, Azərbaycana qarşı Qərbin qeyri-obyektiv münasibətinin zərərli təsirlərindən sığortalanmaq istiqamətində də uğurlu xarici siyasət kursu kimi dəyərləndirilə bilər.

Xarici siyasətimizin digər yeni istiqamətlərindən olan Şərqi və Cənub-Şərqi Asiya regionu ilə inteqrasiya Azərbaycanın yeni texnologiyalara əsaslanan qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində də geniş perspektivlər yaradır. Lakin, əməkdaşlığın səviyyəsi hələ kifayət qədər yüksək deyil. Buna baxmayaraq, ölkəmizin

son illərdə xarici siyasətdə qazandığı uğurlar onu deməyə əsas verir ki, digər regionlarla olduğu kimi Şərqi və Cənub-Şərqi Asiya regionunda da siyasi və iqtisadi mövqeyimiz gündən-günə güclənəcəkdir. Nəzərə alsaq ki, bəhs olunan regionla siyasi əlaqələrimiz yalnız müsbət impulsda inkişaf edir. Bu amil Azərbaycanın xarici əlaqələrinin ölkəmizin inkişafında çox mühüm nailiyyətlər qazanacağına əminlik yaradır.

Eyni zamanda, bu ölkələrlə mövcud əlaqələrin genişləndirilməsi və daha da inkişaf etdirilməsi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, beynəlxalq miqyasda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə obyektiv münasibətin təmin edilməsi və Ermənistanın işğalçılıq siyasətinin ifşası üçün də əhəmiyyətlidir.

Beləliklə, Azərbaycanın xarici siyasətində yeni meyllərin ortaya çıxması onun, beynəlxalq mövqelərini gücləndirdi, dünyanın 155 ölkəsinin dəstəyini qazanaraq BMT TŞ-nın qeyri-daimi üzv kimi qəbul olunmasını, 2012-ci ildə isə bu təşkilata sədrlik etməsini təmin etdi. Azərbaycanda bir sıra beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkənin kifayət qədər tanınmasına şərait yaratdı. İşğal altında olan torpaqlarımızın işğaldan azad olunması üçün əlverişli beynəlxalq mühit formalaşdırdı və nəhayət Azərbaycanın müstəqilliyini və suverenliyini daha da möhkəmləndirdi.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində:**


1. 2017-ci ildə Azərbaycanın xarici siyasətinin yeni üfüqləri // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=113969
2. 25 illik müstəqillik dövrünə baxış və xarici siyasətimizin çağdaş prioritetləri // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=107949
3. ABŞ-Azərbaycan münasibətlərinə kiçik ekskurs və gələcək haqqında düşüncələr. "Azərbaycan" qəz., Bakı, 2014, 14 dekabr
4. ABŞ-a qarşı sanksiya ilə bağlı- qanun layihəsi Milli Məclisdə // http://news.lent.az/news/226322
5. Adıgözəlov K. Qərbin ikili standartları: Avropa siyasi insitutlarının böhranı // http://newtimes.az/az/organisations/4233
6. AİDA öz proqram və layihələri vasitəsilə qlobal səviyyədə davamlı inkişafa və humanitar missiyalara töhfə verir - Elmar Məmmədyarov // http://aida.mfa.gov.az/index.php?options=news&id=55&news_id=124
7. Atakişiyev V. Uğurlu şaxələndirmə siyasəti Azərbaycanın iqtisadi və geosiyasi maraqlarını təmin edir // http://www.azerbaijan-news.az/ index. php? mod=3&id=54539
8. Avropa Parlamenti antiazərbaycançı şəbəkənin ən məkrli mərkəzinə çevrilib. "Azərbaycan" qəz., Bakı, 2015, 12 sentyabr
9. Azərbaycan – Albaniya münasibətləri // http://www.mfa.gov.az/ files/file/Azerbaycan_-_Albaniya_munasibetleri_08.09.2014.pdf
10. Azərbaycan – Brazilya münasibətləri // http://mfa.gov.az/ files/file/Azerbaycan%20-%20Braziliya%20munasibetleri(1).pdf
11. Azərbaycan – Bruney münasibətləri // http://www.mfa.gov.az/ files/file/Azerbaycan_-_Bruney_munasibetleri_25.07.2014.pdf
12. Azərbaycan – İndoneziya münasibətləri // http://www.mfa.gov.az/ files/file/Azerbaycan_-_Indoneziya_munasibetleri_13.08.2014.pdf

13. Azərbaycanda az bir vaxtda yoxsulluğun səviyyəsinin çox aşağı düşməsi görünməmiş nəticədir // http://www.azerbaijan-news.az/ index. php? mod=3&id=6829

14. Azərbaycan ilə İspaniya və Latın Amerikası ölkələri arasında informasiya sahəsində əlaqələrin daha da genişləndirilməsi məsələləri müzakirə edilmişdir // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=41057

15. Azərbaycan-İran əlaqələri yeni mərhələdə uğurla inkişaf edir. "Azərbaycan" qəz., Bakı, 2014, 19 noyabr

16. Azərbaycan Latın Amerikası ölkələri ilə əlaqələrin genişləndirilməsində maraqlıdır // http://www.yap.org.az/az/view/news/9269/azerbaycan-latin-amerikasi-olkeleri-ile-elaqelerin-genishlendirilmesinde-maraqlidir

17. Azərbaycanın Latın Amerikası ölkələri ilə multikulturalizm sahəsində əlaqələrinin qurulması məsələsi müzakirə olunub // http://www.xalqqazeti.com/az/news/news/70633

18. Azərbaycan – Moldova münasibətləri // http://lib.aliyevheritage.org/ az/1921443.html

19. Azərbaycan – Serbiya münasibətləri // http://mfa.gov.az/ files/ file/Azerbaycan-Serbiya_munasibetler_20.04.2015.pdf

20. Azərbaycan – Rumıniya münasibətləri // http://lib.aliyev-heritage.org/az/5800868.html

21. Azərbaycan – Tayland münasibətləri // http://www.mfa.gov.az/ files/file/Tayland.pdf

22. Azərbaycan –Xorvatiya münasibətləri // http://mfa.gov.az/ files/file/Azerbaycan%20-%20Xorvatiya%20munasibetleri.pdf

23. Azərbaycan – Yunanıstan münasibətləri // http://www.mfa.gov.az/ files/file/Azerbaycan_-_Yunanistan_munasibetleri_14.08.2014.pdf

24. Bakıda «Ərəb ölkələri son dəyişikliklərdən sonra: sosial, iqtisadi və siyasi proseslər» mövzusunda beynəlxalq konfrans keçirilir. "Azərbaycan" qəz., Bakı, 2013, 08 noyabr

25. Bakıda «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimi olmuşdur // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=32715
26. Bayramov K., İsmayılov Y., İmanova S., Latın Amerikası ölkələri // http://gsaz.az/ci/Kitabxana/K.B.Bayramov_Y.Q.Ismayilov_S.H.Imanov_Latin_Amerikasi_olkelri.pdf
27. Cəfərli R. Azərbaycan-Xorvatiya münasibətlərində yeni mərhələ başlayır // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=108730
28. Dmitri Savelyev: Rusiya ilə Azərbaycanın yaxınlaşmasında yeni mərhələ başlanıb. “Azərbaycan” qəz., Bakı, 2016,22 iyun
29. Əhmədli C. Erməni lobbisinin Qarabağ münaqişəsinə təsiri – FAKTLAR // http://karabakhmedia.az/main/1503-ermeni-lobbisinin-qarabag-munaqishesine-tesiri-faktlar.html
30. Əhmədov E. Azərbaycanın müstəqil xarici siyasət kursu və Qərbin ikili standartlar siyasəti // http://az.strategiya.az/index.php?do=xeber&id=70329
31. Əlisgəndərli C. “Ərəb Baharı” (analitik baxış). “Ərəb Baharı” kontekstində Türkiyə və İran // http://static.bsu.az/ w8/ Tarix%20ve%20onun%20problem/ 2014%20%201/seh.161-169.pdf
32. Əliyev Ə. Azərbaycan həqiqətləri Avropa Şurasında. Bakı: CBS mətbəəsi, 2013, 352 s.
33. Əliyev İ. 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // http://www.president.az/articles/17437
34. Əliyev R. Azərbaycan Prezidenti İlham ƏLİYEV: Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. “Xalq” qəz., Bakı, 2011, 19 avqust
35. “Ərəb Baharı” və xarici amillər-1 // https://www.gunaz.tv/az/meqaleler/ereb-bahari-ve-xarici-amiller-1-m10298
36. Fərəcov S. Erməni " soyqırım"ını tanıyan dövlətlər-siyahı // http://uluyol.info/siyaset/75-ermeni-soyqrimini-taniyan-dovletler-siyahi.html

37. Hacıalıyev E. Azərbaycan-Bolqarıstan münasibətləri qarşılıqlı maraq və etimada söykənir // http://www.azerbaijan-news.az/ index.php? mod=3&id=3926
38. Hacımusalı O. Azərbaycan - Serbiya münasibətləri uğurla inkişaf edir // http://www.anl.az/down/meqale/yeni_az/2015/fevral/419917.htm
39. Hacımusalı O. Azərbaycan-Sloveniya münasibətləri yüksələn xətlə inkişaf edir // http://www.anl.az/down/meqale/yeni_az/2015/mart/428292.htm
40. Həmidov S. Avropa ittifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. Bakı: ADU nəşriyyatı, 2009, 271 s.
41. Həsənov Ə. Ermənistanın Azərbaycana təcavüzü, saxta "erməni soyqırımı" və Qərbin ikili standartlar siyasəti. "Respublika" qəz., Bakı, 2015, 28 aprel
42. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti // http://elibrary.bsu.az/books_aysel/N_236.pdf
43. İqor Çrnadak: Bosniya və Herseqovina Azərbaycanın ərazi bütövlüyü və suverenliyini birmənalı şəkildə dəstəkləyir // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=111016
44. İspaniyanın EFE agentliyi Azərbaycanın xarici işlər nazirinin müsahibəsini yayıb // http://www.respublica-news.az/index.php/dig-r-x-b-rl-r/duenya-buguen/item/13689-ispaniyan-n-efe-azhentliyi-azaerbaydzan-n-kharidzi-ishlaer-nazirinin-musahibaesini-yay-b
45. Mehdiyev R. Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti // http://docs.rferl.org/az-AZ-Latn/2015/10/29/710b2cb0-165e-42ff-b0fe-d4cd2e36dbca.pdf
46. Məmmədov A. Müasir mərhələdə daxili etnik münaqişələrin regional dinamikasının müqayisəli təhlili // http://www.stj.sam.az/ post/m%C3%BCasir-m%C9%99rh%C9%99l%C9%99d%C9%99-daxili-etnik-m%C3%BCnaqi%C5%9F%C9%99l%C9%99rin-regional dinamikas% C4% B1n% C4%B1n-m%C3%BCqayis%C9%99li-t%C9%99hlili

47. Məmmədov N. Xarici siyasət: Reallıqlar və gələcəyə baxış. Bakı: Qanun nəşriyyatı, 2013, 262 s.
48. Mənsimov E. Azərbaycan – Tayland əlaqələri genişlənir // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=32235
49. Mənsimov E. İndoneziya Azərbaycanın ərazi bütövlüyünü tanıyır // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=22584
50. Mərkəzi Bank və İqtisadiyyat jurnalı məqalələr və tezislər toplusu // https://www.cbar.az/assets/2778/Merkezi_Bank_ve_iqtisadiyyat.pdf
51. Miri N. Dağlıq Qarabağ məsələsi Avropa Birliyi və ABŞ üçün prioritet deyil // http://publika.az/news/nida/34423.html
52. Mustafa N. 100 ilin yalanı – "erməni soyqırımı"- II hissə // http://1905.az/100-ilin-yalani-erm%C9%99ni-soyqirimi-ii-hiss%C9%99/
53. Obama, yoxsa Romni?. "Azərbaycan" qəz., Bakı, 2012, 06 noyabr
54. Ömərov V. Azərbaycanın Şərqi və Cənub Şərqi Asiya ölkələri (İndoneziya, Cənubi Koreya, Tailand və s.) ilə əməkdaşlığı // http://sia.az/az/news/interesting/337929-azerbaycanin-serqi-ve-cenub-serqi-asiya-olkeleri-indoneziya-cenubi-koreya-tailand-ve-s-ile-emekdaslii
55. Prezident İlham ƏLİYEV: Biz ancaq bərabərhüquqlu, qarşılıqlı maraqlar, bir-birinin işinə qarışmamaq prinsiplərini qəbul edirik // http://www.xalqqazeti.com/az/news/politics/26776
56. Prezident İlham Əliyev yeni dövr xarici siyasətin konseptual əsaslarını müəyyənləşdirdi // http://www.azerbaijan-news.az/ index. php? mod=3&id=16182
57. Suriyada Rusiyanın Su-24 təyyarəsinin vurulması // https://az.wikipedia.org/ wiki/Suriyada_Rusiyan%C4%B1n_Su-24_t%C9%99yyar% C9%99 sinin_ vurulmas%C4%B1
58. Süleymanov E. Azərbaycana qarşı siyasi məhbus kampaniyası bir mərkəzdən idarə edilir // http://m.apa.az/ az/ xarici_siyaset/ elxan-suleymanov-azerbaycana-qarsi-siyasi-mehbus-kampaniyasi-bir-merkezden-idare-edilir. html

59. Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində // http://elibrary.bsu.az/110/N_109.pdf
60. Uğurlu xarici siyasət strategiyasının Azərbaycan modeli: nailiyyətlər və perspektivlər // http://www.azerbaijan-news.az/index.php?mod=3&id=28464
61. Zirvə görüşü nəinki region, ümumiyyətlə, dünya üçün əhəmiyyət kəsb edir. “Azərbaycan” qəz., Bakı, 2016, 12 avqust

**Türk dilində:**

62. 35 Maddede Rusya - Ukrayna Gerilimi Hakkında Bilmeniz Gereken Her Şey // https://onedio.com/haber/35-maddede-rusya-ukrayna-gerilimi-hakkinda-bilmeniz-gereken-her-sey-261971
63. ABD’nin Güney Kafkasya stratejisi: Diyalog mu, Çatışma mı? // http://politikaakademisi.org/2013/03/28/abdnin-guney-kafkasya-stratejisi-diyalog-mu-catisma-mi/
64. Azerbaycan’dan Sırbistan’a dev yatırım // http://tr.trend.az/business/2437657.html
65. Dağlık Karabağ’dan Kırım’a: Çifte standartın bedeli // http://politikaakademisi.org/2014/04/25/daglik-karabagdan-kirima-cifte-standardin-bedeli/
66. Deniz T. Arap baharı ve Türkiye: siyasi coğrafya açısından bir değerlendirme // http://dergipark.gov.tr/download/article-file/27008
67. Economist: Türkiye'de darbe girişimi sonrası 'Batı karşıtlığı' // http://www.bbc.com/turkce/haberler-turkiye-37127568
68. Enes M. B. Geçmişten Savaşa: Suriye’de Neden İç Savaş Çıktı? // http://www.stratejikortak.com/2016/10/gecmisten-savasa-suriyede-ic-savas-cikti.html
69. Karadağ S. Arap Baharı karşısında Libya iç savaşı // http://www.academia.edu/23933192/ARAP_BAHARI_KAR%C5%9EISINDA_L%C4%B0BYA_%C4%B0%C3%87_SAVA%C5%9EI

70. Oğuzhan M. T. Dağlık Karabağ ve Kırım: Çifte standartların bir karşılaştırması // http://avim.org.tr/ tr/ Yorum/ DAGLIK-KARABAG-VE-KIRIM-CIFTE-STANDARTLARIN-BIR-KARSILASTIRMASI

71. Paksoy E. Libya: ABD ve AB, NATO Müdahalesini Haklı Çıkarmak İçin İç Savaşı Teşvik mi Ediyor? // http://www.derindusunce.org/2011/03/18/libya-abd-ve-ab-nato-mudahalesini-hakli-cikarmak-icin-ic-savasi-tesvik-mi-ediyor/

72. Rusya-Türkiye ilişkileri yeniden kuruluyor: Putin ve Erdoğan 5 kritik karar aldı // http://www.cnnturk.com/turkiye/rusya-turkiye-iliskileri-yeniden-kuruluyor-putin-ve-erdogan-5-kritik-karar-aldi?page=3

73. Sıradaki karalama kampanyası: Bati yine yanlış yolda // http://politikaakademisi.org/2016/09/26/siradaki-karalama-kampanyasi-bati-yine-yanlis-yolda/

74. Suriye'de yaşanan iç savaşın perde arkasında aslında ne var? // http://www.meltemhaber.com/?haber,9993

75. Şahverdiyev C. John Kerry’nin Azerbaycan’da darbe planı // http://www.haberhergun.com/john-kerry-nin-azerbaycan-da-darbe-plani-makale,1607.html

76. Türkiye askeri darbe girişimi // https://tr.wikipedia.org/wiki/2016_T%C3%BCrkiye_asker%C3%AE_darbe_giri%C5%9Fimi

**Rus dilində:**

77. Война в Ливии: ход и сценарии будущего // https://interaffairs.ru/jauthor/material/476

78. Каддаф ад-Дам: предсказания Муамара Каддафи начали сбываться // https://ria.ru/world/20170220/1488365043.html

79. Посол Азербайджана пожаловался в синагоге США на необъективное отношение к стране // https://eadaily.com/ru/news/2015/08/31/baku-pozhalovalsya-v-sinagoge-ssha-na-neobektivnoe-k-sebe-otnoshenie-vashingtona

**İngilis dilində:**

80. Aliyev H. Azerbaijani-Serbian Relations Booming Thanks to Mutual Interests // https://jamestown.org/ program/azerbaijani-serbian-relations-booming-thanks-to-mutual-interests/#!
81. Argentina Hosts Azerbaijan Fostering New Trade Relations // http://www.argentinaindependent.com/currentaffairs/latest-news/ newsfromargentina/argentina-hosts-azerbaijan-fostering-new-trade-relations/
82. Azerbaijan, Argentina sign agreement on trade and economic cooperation // http://www.bilaterals.org/?azerbaijan-argentina-sign&lang=en
83. Azerbaijan, Cambodia to boost relations // https://www.azernews.az/ nation/66318.html
84. Azerbaijan's Far Eastern orientation and South Korea // https://www.researchgate.net/publication/249060013_Azerbaijan's_Far_Eastern_orientation_and_South_Korea
85. Bulgaria and Azerbaijan currently enjoy strategic partnership relations – Mehriban Aliyeva // http://caspianenergy.net/en/events/35719-2016-09-23-10-23-48
86. Dearden L. Turkey shoots down Russian plane: What could be the consequences for global conflict, Syria and the fight against Isis? // http://www.independent.co.uk/ news/world/middle-east/turkey-shoots-down-russian-plane-what-could-be-the-consequences-for-global-conflict-syria-and-the-a6747196.html
87. Filipino community in Baku // http://bakucommunity.beep.com
88. Ivanov - Aliyev: Readiness for greater economic cooperation between Macedonia and Azerbaijan // http://pretsedatel.mk/en/media-centre/news/4371.html

89. Mammadov F. Azerbaijan's foreign policy – A new paradigm of careful pragmatism // http://www.epc.eu/documents/uploads/pub_5598_article_-_farhad_mammadov.pdf
90. Nhung H. Vietnam & Azerbaijan to boost economic relations // http://english.vietnamnet.vn/fms/government/157422/vietnam---azerbaijan-to-boost-economic-relations.html
91. Shirinov R. Azerbaijan, Brazil sign MoU on trade, investment cooperation // https://www.azernews.az/business/106548.html
92. Tase P. Azerbaijan And Indonesia: Dynamic Bilateral Relations – OpEd // http://www.eurasiareview.com/15012016-azerbaijan-and-indonesia-dynamic-bilateral-relations-oped/
93. Western Orientation in the Azerbaijan’s foreign policy // file:///C:/Users/DELLL/Downloads/DPTX_2011_2__0_328895_0_123980.pdf

**İspan dilində:**

94. Azerbaiyán afianzando su política exterior hacia América Latina // http://eurasiahoy.com/02092014-azerbaiyan-afianzando-su-politica-exterior-hacia-america-latina/
95. Entrevistas a los embajadores de Azerbaiyán y Georgia en Argentina, Sr. Guela Sekhniachvili y Sr. Mammad Ahmadzada // file:///C:/Users/DELLL/Downloads/2193-1-6434-1-10-20150714.pdf